№ 15 (958) 13-19 aprel 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# İLHAM ƏLİYEV: 2017-Cİ İL DƏ ÖLKƏMİZ ÜÇÜN UĞURLU İL OLACAQDIR



Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açmışdır. O, demişdir:

-Birinci rübdə ölkəmiz uğurla inkişaf edib, bizim bütün proqnozlarımız həyatda öz əksini tapır. Hələ keçən ilin sonlarında mən tam əminliklə qeyd etmişdim ki, 2017-ci ildə ölkəmizin sürətli inkişafı təmin ediləcəkdir. Birinci rübün nəticələri göstərir ki, Azərbaycan bütün sahələrdə çox sürətlə inkişaf edib, bizim beynəlxalq mövqelərimiz möhkəmlənib, ölkə daxilində proseslər müsbət istiqamətdə gedir, iqtisadi inkişaf təmin edilir, bütün sosial məsələlər öz həllini tapır. Çox ciddi sosial təşəbbüslər irəli sürülmüşdür, ordu quruculuğu uğurla gedir və əminəm ki, biz bu il istədiyimiz nəticələrə, bütün hədəflərə çatacağıq və 2017-ci il də ölkəmiz üçün uğurlu il olacaqdır.

Əfsuslar olsun ki, dünyada və regionda mövcud beynəlxalq vəziyyət hələ ki, çox gərgindir. Mövcud olan münaqişələr, qanlı toqquşmalar davam edir. Yeni risklər yaranır, yeni təhdidlər ortaya çıxır və bütövlükdə, əfsuslar olsun ki, 2017-ci ildə bölgədə sabitlik istiqamətində ciddi addımlar atılmamışdır. Əksinə, bir daha qeyd etmək istəyirəm ki, risklər artır. Əlbəttə, biz bu bölgədə yaşayan bir ölkə kimi bundan narahatıq və öz tədbirlərimizi görürük ki, Azərbaycan dövləti və Azərbaycan xalqı inkişaf etsin, normal yaşasın, ölkəmizdə təhlükəsizlik təmin edilsin və özümüzü potensial risklərdən qoruya bilək.

İlin əvvəlindən beynəlxalq fəaliyyətimiz də çox uğurlu olmuşdur. Mən birinci rübdə 7 xarici səfər etmişəm. Bu səfərlərin çox böyük əhəmiyyəti var. İlk növbədə, beynəlxalq konfranslarda mənim iştirakım ölkəmizin maraqlarının təmin edilməsi üçün çox böyük əhəmiyyət daşıyır. Bilirsiniz ki, dünyanın iki mötəbər beynəlxalq tədbiri var – biri Davos Ümumdünya İqtisadi Forumu, hansı ki, siyasi və iqtisadi məsələləri diqqətdə saxlayır və dünyanın siyasi və iqtisadi elitası orada iştirak edir. İkincisi isə Münxen Təhlükəsizlik Konfransıdır, bu da daha çox təhlükəsizlik və siyasi məsələlərin müzakirəsinə həsr olunur. Hər iki mötəbər tədbirdə iştirak edərkən mən ölkəmizin mövqeyini, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın işğalçı siyasəti ilə bağlı mövqeyini dünya ictimaiyyətinə bir daha çatdırdım. Eyni zamanda, Davos İqtisadi Forumunda dövlət başçıları, aparıcı beynəlxalq şirkətlərin rəhbərləri ilə çoxsaylı görüşlərim, əlbəttə ki, bizim maraqlarımızı təmin edir. Mən 10 ildən çoxdur ki, Davos Ümumdünya İqtisadi Forumunda iştirak edirəm və o görüşlər əsnasında ölkəmiz üçün bir çox önəmli layihə həyata keçirilir. Əlbəttə, bizim bu tədbirlərdə iştirakımız, fəal rolumuz ölkəmizə rəğbəti, hörməti artırır və bu gün Azərbaycan beynəlxalq arenada çox etibarlı tərəfdaş kimi tanınır.

Birinci rübdə Avropa Komissiyasına mənim uğurlu səfərim olub. Biz buna da çox böyük əhəmiyyət veririk. Çünki Avropa ölkələri bizim əsas ticarət tərəfdaşlarımızdır, əsas investorlarımızdır və biz Avropa İttifaqı ilə uzun illərdir ki, səmərəli əməkdaşlıq aparırıq.

Dövlət başçısı Pakistan İslam Respublikasına, Qətər Dövlətinə, Fransaya rəsmi səfərlərindən danışmış, demişdir ki, sadaladığım ancaq bu yeddi səfər göstərir ki, bizim diplomatiyamız çox uğurludur, beynəlxalq mövqelərimiz möhkəmlənir və Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan ölkədir. Hətta bir-biri ilə o qədər də yaxşı münasibətlər qurmayan ölkələr Azərbaycanla əməkdaşlığa gəldikdə, tərəddüdsüz və birmənalı şəkildə bu əməkdaşlığın dərinləşməsinə maraq göstərirlər və maraqlıdırlar.

Birinci rübdə Azərbaycanda V Qlobal Forum keçirilmişdir. Bu da artıq dünya miqyasında önəmli beynəlxalq tədbirlərin sırasına daxil edilib. Bu Forumda dünyanın 40-dan çox fəaliyyətdə olan və sabiq dövlət, hökumət başçıları iştirak etmişlər. Bir hadisəni də qeyd etmək istəyirəm. Bu da çox əlamətdar hadisədir. Əslində, bu hadisə bizim dünyadakı rolumuzu əks etdirir. Bu da Amerika və Rusiya ordularının Baş Qərargah rəislərinin birinci görüşünün Bakıda keçirilməsi hadisəsidir. Hər iki ölkə Azərbaycanı birinci görüş üçün seçməklə həm bizə olan hörmətini növbəti dəfə ifadə edir, həm də bu, bizim rolumuzu əyani şəkildə sübut edir. Azərbaycan bu gün nəinki bölgə çərçivəsində, artıq dünya miqyasında etibarlı tərəfdaş, müstəqil, ləyaqətli ölkə kimi özünü təqdim edib. Əlbəttə ki, birinci rübdə beynəlxalq fəaliyyətimizdə bir çox digər önəmli hadisələr də baş vermişdir. Ancaq əsas məsələlər bundan ibarətdir.

Əlbəttə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli həmişəki kimi, diqqət mərkəzində olmuşdur. Baxmayaraq ki, Ermənistan danışıqlar prosesini hər vəchlə dayandırmağa, onu boykot etməyə çalışır, ancaq buna nail ola bilmir və nail ola bilməyəcək. Minsk qrupunun həmsədr ölkələri artıq bir neçə dəfə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Bu, əslində işğala son qoyulması deməkdir. Hesab edirəm, Ermənistana, onun işğalçı siyasətinə Minsk qrupu tərəfindən təzyiq daha da güclənməlidir ki, onlar beynəlxalq normalara riayət etsinlər və işğala son qoysunlar.

Bizim danışıqlar prosesindəki mövqeyimizdə heç bir dəyişiklik yoxdur, ola da bilməz. Ərazi bütövlüyü prinsipi danışıqlar mövzusu deyil və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir.

Prezident İlham Əliyev birinci rübdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir neçə hadisəni qeyd etmişdir. Bu hadisələrdən birincisi, Dağlıq Qarabağda keçirilən qondarma "referendum" idi ki, onun keçirilməsi ilə Ermənistan özünü bir daha biabır və ifşa etdi. Digər hadisə - ilk dəfə olaraq, bizim qanunlarımızı bir neçə dəfə kobudcasına pozmuş, Dağlıq Qarabağa qanunsuz səfərlər etmiş, Azərbaycan dövlətini, xalqını təhqir etmiş bir nəfər xaricdə saxlanılaraq bütün dünyanın gözü qarşısında Azərbaycana təhvil verildi və Azərbaycana gətirildi. Bu, ilk dəfə baş verən hadisədir. Bu, ədalətin bərpasıdır. Bu, beynəlxalq hüququn aliliyidir. Ekstradisiya ilə bağlı olan bütün məsələlər beynəlxalq qanun və konvensiyalar əsasında baş verib. Əminəm ki, bu, həm bizim qanunlarımızı kobudcasına pozan və bununla qürrələnən şəxsə də, onun kimilərinə də dərs olub və dərs olacaq.

Bir önəmli hadisə də baş verdi. Biz Cocuq Mərcanlı kəndinin bərpasına başladıq. Hesab edirəm ki, bu da tarixi hadisədir. İndi orada yeni qəsəbə salınır.

Onu da qeyd etməliyəm ki, bu il köçkünlər üçün digər yerlərdə yeni binalar tikilir, qəsəbələr salınır. Onlardan biri Tərtər rayonunda inşa edilən böyük qəsəbədir, yaxın aylarda istifadəyə veriləcək. Eyni zamanda, Bakı və Sumqayıt şəhərlərində qəzalı binalarda yaşayan köçkünlərin problemləri də əminəm ki, yaxın vaxtlarda öz həllini tapacaq.

Əlbəttə, bütün bu məsələləri həll etmək üçün bizim güclü iqtisadi potensialımız olmalıdır. Biz bu potensialı yaratmışıq. 2017-ci ilin birinci rübünün yekunları onu göstərir ki, Azərbaycan iqtisadiyyatı çox dinamik şəkildə inkişaf edir. Mən bəzi rəqəmləri ictimaiyyətin diqqətinə çatdırmaq istəyirəm. Bu rəqəmlər mövcud iqtisadi vəziyyətimizi hər şeydən yaxşı əks etdirir.

İqtisadiyyatımızın əsas göstəriciləri qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının inkişafıdır. Bütün bu istiqamətlər üzrə yaxşı nəticələr var. İqtisadiyyatın qeyri-neft sektoru 2,4 faiz artıbdır, qeyri-neft sənayemizin artımı 2 faiz səviyyəsində olubdur, kənd təsərrüfatı 3,5 faiz artıbdır. Xüsusilə qeyd etmək istəyirəm ki, bitkiçilik 20 faizdən çox artıbdır. Bu, onu göstərir ki, bizim gördüyümüz işlər, ciddi islahatlar, investisiyalar artıq öz nəticələrini verir.

Birinci rübdə bizim valyuta ehtiyatlarımız 1 milyard dollar səviyyəsində artıbdır. Bu gün valyuta ehtiyatlarımız 38,5 milyard dollardır. Bu, böyük rəqəmdir. Biz keçən il valyuta ehtiyatlarımızı qoruya bilmişik. Baxmayaraq ki, neftin qiyməti kəskin səviyyədə aşağı düşüb, bu il nəinki qoruya bilmişik, birinci üç ayda biz əlavə 1 milyard dollar qazanmışıq.

Bu ilin üç ayında ticarət dövriyyəsi 15 faiz artmışdır. Bu da çox yaxşı göstəricidir. İxrac təxminən 50 faiz artmışdır. Sevindirici hal ondan ibarətdir ki, qeyri-neft ixracımız təqribən 10 faiz ətrafında artmışdır, idxal isə 17 faiz azalmışdır. Bu da bizim siyasətimizin təzahürüdür. Çünki biz idxaldan asılılığımızı azaltmaq üçün yerli istehsalı stimullaşdırdıq, biznes qurumlarına çox gözəl şərait yaratdıq, xüsusilə kənd təsərrüfatı sahəsinə texnikanın alınmasına və digər tədbirlərə dövlət investisiyaları qoyuldu. Bu barədə artıq çox danışmışıq, təkrar etmək istəmirəm. İdxalın azalması, ixracın kəskin artması bizim iqtisadi sabitliyimizi təmin edir. Ancaq birinci rübdə ticarət dövriyyəmizin müsbət saldosu 1 milyard dollar səviyyəsindədir.

Bax, bu göstəricilər bizim iqtisadi vəziyyətimizi real əks etdirir. Əgər əlavə etsəm ki, bu il Davos Ümumdünya İqtisadi Forumu iqtisadiyyatların rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 37-ci yerə layiq görüb, artıq mənzərə tamamlanır. Biz böhranlı illərdə öz reytinqimizi üç pillə artıra bilmişik. İnkişafda olan ölkələr arasında reytinqə görə isə Azərbaycan 1-ci, 2-ci yerləri bölüşür. Budur bizim işimizə verilən real və etibarlı qiymət. Biz bu yolla gedəcəyik, iqtisadi potensialımızı gücləndirəcəyik.

Birinci rübdə 85 min yeni iş yeri yaradılmışdır. Onlardan 70 mini daimi iş yeridir. Doqquz min iş yeri bağlanıb. Biz artıq yenə də gözəl mənzərəni görürük. Sevindirici hal ondan ibarətdir ki, iş yerlərinin yaradılması təkcə dövlət sektorunda yox, özəl sektorda da davam edir. Mən əvvəlki toplantıda qeyd etmişdim ki, biz bu il dövlət sektorunda 40 mindən çox yeni iş yeri yaradacağıq. Onlar artıq yaradılıb. Amma 40 mindən çox iş yeri özəl sektorda yaradılıbdır. Bu da iqtisadi inkişafın təzahürüdür.

Bu il Cənub Qaz Dəhlizinin icrası ilə bağlı da önəmli hadisə baş verib. Cənub Qaz Dəhlizinin Məşvərət Şurası üçüncü dəfə Bakıda görüş keçirib. Bu layihədə iştirak edən bütün ölkələrin, Avropa Komissiyasının, Amerikanın, Böyük Britaniyanın yüksək vəzifəli nümayəndələri öz iştirakları ilə bir daha bu layihəyə dəstəklərini göstərmiş oldular. Məşvərət Şurasının yekunu olaraq qətnamə qəbul edildi. Bu qətnamədə yenə də



ölkəmizin liderlik rolu qeyd edilir. Tezliklə Cənub Qaz Dəhlizinin istifadəyə verilməsi həm bizim, həm də bu layihədə iştirak edən və bu layihədən gələcəkdə xeyir götürəcək bütün tərəflər üçün önəmlidir. Mən əminəm ki, 2017-ci il bu baxımdan həlledici il olacaq və biz gələn il TANAP layihəsinin açılışını qeyd etməliyik.

Bu ilin əvvəlindən nəqliyyat sektorunda da yaxşı nəticələr var. Xüsusilə qeyd etməliyəm ki, Astaraçay çayı üzərində tikdiyimiz körpü vasitəsilə bu ilin mart ayında Azərbaycandan İrana artıq birinci qatar keçibdir. Biz Şimal-Cənub dəhlizi ilə bağlı ərazimizdə olan bütün işləri yekunlaşdırdıq. Azərbaycan bu layihə ilə bağlı öz üzərinə düşən bütün vəzifələri artıq icra edib. Bir rəqəmi də diqqətə çatdırmaq istəyirəm. Bu da turizmlə bağlıdır. Keçən il turistlərin, xarici vətəndaşların ölkəmizə səfərləri 11 faiz artmışdır. Bu ilin birinci rübündə artıq 25 faiz artım var. Bu da çox gözəl göstəricidir. Biz digər müalicəvi turizm zonalarını yaratdıq, yeni turizm obyektləri istifadəyə verildi. Qusarda Şahdağ, Qəbələdə Tufandağ xizək kompleksləri ən müasir turizm infrastrukturudur.

Növbəti amil mənim göstərişimlə "ASAN viza" sisteminin yaradılmasıdır. Mənə bu yaxınlarda məruzə edildi ki, üç ay ərzində "ASAN viza" xətti ilə 40 min viza verilib. Bu sistem Azərbaycana viza ilə gələnlərə şamil olunur. Səksəndən çox ölkənin vətəndaşı elektron viza alır. Bunlar olmasaydı, turizm inkişaf edə bilərdimi? Əlbəttə, bizim tariximiz, tarixi abidələrimiz, gözəl iqlimimiz, xalqımızın qonaqpərvərliyi, zəngin mətbəxi də bu işdə rol oynayır. Ancaq bunlar hamısı var idi. Bəs, niyə turizm inkişaf etmirdi? Biz bu sahədə inkişafı niyə görmürdük? Ancaq bu məsələni mən şəxsən öz nəzarətimə götürəndən sonra burada dönüş yarandı. Mənim yadımdadır, dəfələrlə müxtəlif dövlət qurumlarına göstəriş vermişdim ki, bu viza məsələlərini həll edin. Çünki vizalarla bağlı pozuntular bizim imicimizə zərbə vururdu. Xarici vətəndaş o vizanı səfirlikdən almaq üçün min əziyyətə qatlaşmalı olurdu, onu get-gələ salırdılar, qanunsuz tələblər irəli sürürdülər. Bu məsələ birdəfəlik həll olundu. İndi bu olmasaydı, Azərbaycana kim gələrdi? Bəzi xarici ölkələrdə olarkən görüşlər əsnasında mənə deyirdilər ki, biz Azərbaycana gəlmək istəyirik, bizim vətəndaşlar gəlmək istəyirlər, amma çox çətindir. Gərək bir həftə, iki həftə əvvəl planlaşdırasan, bilinmir hələ sənə viza verəcəklər, ya verməyəcəklər, bizim konsulumuz olan başqa şəhərə getməlisən. Xarici vətəndaş min bir əziyyətdən çıxırdı ki, Azərbaycana gəlsin. Mən bu məsələni tam diqqətə götürdüm və dərhal inqilabi dönüşlər yarandı.

Biz gələn ay İslam Həmrəyliyi Oyunlarını keçirəcəyik. Bütün hazırlıq işləri yekunlaşır. Bu da böyük bir idman bayramı olacaq. Mən artıq təntənəli mərasimdə qeyd etdim ki, bu, təkcə idman Oyunları deyil, həm də birlik Oyunlarıdır. Biz bu istiqamətdə də səylərimizlə müsəlman ölkələri arasındakı birliyi möhkəmləndirəcəyik.

* * * * *

Dövlətimizin başçısı iclasda yekun nitq söyləmişdir. O, demişdir:

- Beləliklə, 2017-ci il yaxşı başlayır, yaxşı nəticələr var. Çalışmalıyıq ki, il ərzində bu dinamikanı saxlayaq və 2017-ci ili də uğurla başa vuraq.

Önəmli məsələlərdən biri, təbii ki, makroiqtisadi sabitlikdir. Bu makroiqtisadi sabitliyi möhkəmləndirməliyik. Süni qiymət artımına yol verilməməlidir. İstehlak qiymətlərinə daim diqqət göstərilməlidir, bu, nəzarət altında olmalıdır. Hesab edirəm ki, bütövlükdə makroiqtisadi sabitlik baxımından 2017-ci il əvvəlki illərlə müqayisədə daha uğurlu olacaqdır. Bunu deməyə kifayət qədər əsaslar var. Bu istiqamətdə düşünülmüş və çox çevik siyasət aparılmalıdır.



Dövlət büdcəsinin icrası da uğurla gedir. Həm gömrük, həm vergi orqanları rüblük planı artıqlaması ilə yerinə yetiriblər. Bu, yaxşı haldır. Eyni zamanda, büdcə xərcləri də 100 faiz icra edilməlidir.

Bizim maliyyə vəziyyətimiz yaxşıdır. Biz bu il valyuta ehtiyatlarımızı üç ay ərzində 1 milyard dollar səviyyəsində artırmışıq. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan beş dəfədən çox artıqdır. Hesab edirəm ki, bu, dünya miqyasında çox nadir hallarda rast gəlinən bir mənzərədir. Bu baxımdan Azərbaycan əlbəttə ki, fərqlənir. Bir çox inkişaf etmiş ölkələrdə xarici borc ümumi daxili məhsuldan çoxdur. Valyuta ehtiyatları xarici borcun heç 20 faizini ödəyə bilmir. Ancaq bizdə xarici borc ümumi daxili məhsulun 20 faizini təşkil edir, çox aşağı göstəricidir. Valyuta ehtiyatlarımız isə xarici borcdan beş dəfədən çox artıqdır. Hesab edirəm ki, müxtəlif reytinq agentlikləri, bax, bu amilləri nəzərə almalıdır. Eyni zamanda, giriş sözümdə qeyd etdiyim kimi, ilin birinci rübünün iqtisadi göstəriciləri də ən gözəl nəticələrdən biridir. Bu il inşaat sektorunda canlanma müşahidə olunur. Bu da təbiidir. Çünki keçən il görülmüş işlər, qəbul edilmiş qərarlar artıq özünü büruzə verir. Mənə verilən məlumata görə, hazırda Bakı şəhərində 300-dən çox yeni hündürmərtəbəli bina tikilir. Bu da özlüyündə gözəl bir göstəricidir. Burada minlərlə yeni iş yeri yaradılır. Keçən il biz daha çox inşaat sektorunda iş yerlərini itirdik. Bu il bu, bərpa edilir. Həm qəbul edilmiş qərarlar, dövlət investisiyaları və əlbəttə, özəl sektorun fəallaşması yeni bir vəziyyətə gətirib çıxarır. Keçən il Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə böyük şəhərciyin təməl daşı qoyuldu, inşaat işləri gedir. İndi ikinci layihənin icrası gözlənilir. "Ağ Şəhər" layihəsinin birinci mərhələsi başa çatıb. Hələ növbəti beş il ərzində onlarla bina tikiləcəkdir.

Birinci belə pilot layihə Sabunçu rayonunda icra edilmişdir. Yeni tikilmiş o binanın açılışında mən şəxsən iştirak etmişdim. Gördüm ki, vətəndaşlar da buna çox sevinirlər. Çünki onlar həm yeni mənzillərə köçürülür, onların qəzalı binalardan canı qurtarır. Eyni zamanda, mən xüsusi tapşırıq vermişdim ki, yeni binalarda mənzillərin sahəsi daha da böyük olsun. Vətəndaşlara əvvəlkindən təxminən 10, bəzi hallarda 20, yaxud 30 faiz daha böyük ölçüdə təmirli mənzillər verilir. Əlbəttə ki, vətəndaşlar buna çox sevinirlər. Bu, sahibkarlar üçün də əlverişlidir. Çünki onlar üç-dörd mərtəbəli binanın yerinə hündürmərtəbəli bina tikirlər. Onlar da gəlir götürürlər, inşaat sektoru da inkişaf edir, inşaat materiallarının istehsalı artır, iş yerləri yaradılır. Yəni, bu proses artıq geniş vüsət almışdır. Mənə verilən son məlumata görə, Bakı şəhərində bu yolla həyata keçirilən layihələrin sayı artıq 75-ə çatıb. Bu proses davam edir.

Növbəti önəmli layihə mikrorayonlarla bağlıdır. Artıq birinci mikrorayonla bağlı layihə hazırlanıb, əminəm ki, tezliklə icra ediləcək. Orada köhnəlmiş binaların yerində yeni, müasir, gözəl memarlıq üslubunda binalar tikiləcəkdir. Mən xüsusi tapşırıq vermişəm ki, yeni tikilən, xüsusilə sökülən o binaların yerində tikilən binaların birinci mərtəbəsində mütləq ictimai yerlər, uşaq bağçası nəzərdə tutulsun. Beləliklə, bu yolla tikilən 75 binanın hər birinin birinci mərtəbəsində uşaq bağçası olacaqdır. Bu da Bakının uşaq bağçası ilə bağlı mövcud olan probleminin həllinə müsbət təsir göstərəcək. Bu yolla biz gələn üç-dörd il ərzində uşaq bağçası problemini həll edəcəyik.

Sənaye istehsalı və kənd təsərrüfatı əsas prioritet istiqamətlərdir. Hər iki istiqamət üzrə yaxşı nəticələr var. Qeyd etdiyim kimi, qeyri-neft sənayesi 2 faiz, kənd təsərrüfatı 3,5 faiz artıb. İndi rayonlarda sənaye zonaları yaradılır. Mingəçevir Sənaye Parkında ilk zavodlar bu ilin sonunda istifadəyə veriləcək. Sumqayıt Texnologiyalar Parkında, Kimya Sənaye Parkında, Pirallahı və Balaxanı Sənaye parklarında, Neftçala Sənaye Məhəlləsində işlər yaxşı gedir. Yəni, bu proses artıq gedir. Bir neçə il bundan əvvəl mən qeyd etdim və tapşırıq verdim ki, hər bir rayonda sənaye zonası tikilsin. Biz artıq bunu görürük. Bütün rayonlar bu işlərə fəal qoşulmalıdır.

Mən sahibkarların diqqətini böyük bir layihəyə cəlb etmək istəyirəm. Bu, Sumqayıt Kimya Sənaye Parkında yaradılmaqda olan "SOCAR Polymer" zavodudur. Bu, çox nəhəng sənaye müəssisəsidir, yüz milyonlarla dollar sərmayə qoyulur və çox gözəl məhsul istehsal edəcək. Bu məhsul əlbəttə, həm daxildə istifadə olunacaq, həm də ixracyönümlüdür. Ancaq mən qeyd etməliyəm ki, bu xammalın əsasında çox ciddi bir sənaye sahəsi yaradıla bilər. Biz demək olar ki, indi bütün hazır plastik məhsulları xaricdən idxal edirik. Ancaq "SOCAR Polymer"in işə düşməsindən sonra Azərbaycanda hazır məhsul istehsal etmək üçün yaxşı imkanlar yaranır və bu, biznes üçün də çox gəlirli bir sahə olacaq. Ona görə, bizim dövlət qurumlarına müraciət edirəm, onlar sahibkarlara bunu daha da yaxşı başa salsınlar ki, "SOCAR Polymer"in bir çox hazır məhsulu əsasında zavodlar, fabriklər yaradıla bilər. Bu, həm yeni iş yerlərinin yaradılması deməkdir, həm də sahibkarlara əlavə gəlir gətirəcək və bizim ixrac məhsulumuz da daha böyük qiymətə xarici bazarlara çıxarılacaq. Əgər belə olmasa, "SOCAR Polymer"in məhsulu ancaq xammal kimi xaricə satılacaq. Əlbəttə, bu da yaxşı haldır, amma əminəm ki, mənim məsləhətim nəzərə alınacaqdır.

Kənd təsərrüfatı sahəsində görüləcək işlər haqqında bu ilin yanvar ayında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci ilinin yekunlarının müzakirəsi zamanı mən kifayət qədər geniş danışdım. Bütün tapşırıqlar, göstərişlər verildi. Onları təkrar etmək istəmirəm. Sadəcə, bir neçə məqamı qeyd etmək istəyirəm. Kənd təsərrüfatının inkişafı üçün bu il 150 min hektar yeni torpaq sahəsinin suvarılması nəzərdə tutulur, vəsait ayrılıb və bu layihələr nəzarət altında olmalıdır ki, biz il ərzində bu rəqəmə çata bilək. Hesab edirəm ki, bu, inqilabi bir dəyişiklik olacaq və kənd təsərrüfatı istehsalını əlbəttə ki, artıran amillərdən biridir, bəlkə də birincisidir. Kənd təsərrüfatı məhsullarının həcmi artmalıdır, daxili tələbatı tam təmin etməliyik. İxracyönümlü məhsulların həcmini artırmalıyıq, məhsuldarlıq yüksəldilməlidir, ən müasir texnologiyalar tətbiq olunmalıdır. Torpaqların dəqiq uçotu aparılmalıdır. Bu istiqamətlərdə işlər gedir, göstərişlər verilibdir. Torpaqların müasir üsullarla dəqiq təhlili aparılmalıdır. Torpaqların keyfiyyəti haqqında bizdə müfəssəl məlumat olmalıdır. Biz bu sahədə böyük təcrübə toplamış ölkələrin təcrübəsini gətirməliyik, ondan istifadə etməliyik ki, hansı sahədə, hansı bölgədə hansı məhsul yetişdirilməlidir.

Bu il kənd təsərrüfatının inkişafında mühüm rol oynayan iki zavodun - pivot suvarma sistemləri və pestisid zavodlarının istifadəyə verilməsi nəzərdə tutulur. Bu il artıq bu, təmin edilməlidir. Gələn il isə azot gübrəsi zavodu istifadəyə verilməlidir. Biz bunu təxminən bir ildən sonra gözləyirik. Beləliklə, biz azot gübrələri ilə özümüzü nəinki təmin edəcəyik və ixrac imkanlarımız da yaranacaqdır.

Bütövlükdə özümüzü ərzaq məhsulları ilə təminetmə istiqamətində işlər yaxşı gedir. Hər il regionların sosial-iqtisadi inkişafına dair konfransda mən bu rəqəmləri səsləndirirəm. Deyə bilərəm ki, bizim yeganə zəif yerimiz taxılçılıqdır. Bunu nəzərə alaraq mən göstəriş verdim ki, Prezident Administrasiyasında geniş müşavirə keçirilsin və keçirildi. Bütün tapşırıqlar verildi. Ondan sonra mən taxılçılığın inkişafı və ilk növbədə təhlilin aparılması ilə bağlı müvafiq Sərəncam imzaladım. Burada çox geniş informasiya yığılmalıdır, statistika düzgün təhlil edilməlidir və bir çox suallara cavab verilməlidir. Necə olur ki, biz taxılçılığa bir milyon hektar torpaq ayırmışıq, amma özümüzü ərzaq buğdası ilə təmin edə bilmirik. Bu sual sadə səslənsə də onun arxasında bir çox məqamlar var. Ona görə, dəqiq təhlil aparılmalıdır, bizə nə qədər ərzaq buğdası, bütövlükdə taxılçılıq üçün torpaq sahəsi lazımdır ki, özümüzü keyfiyyətli buğda ilə, taxılla təmin edək və əlbəttə, idxaldan asılılığı azaldaq. Çünki mənə verilən məlumata görə, biz hər il idxala təxminən 300 milyon manat pul ayırırıq. Burada əlbəttə ki, uçot, təhlil, elektron nəzarət, peyk nəzarəti olmalıdır. Bizim peykimiz var və qısa müddət ərzində torpaqların münbitliyinin, məhsuldarlığının dəqiq analizi aparılmalıdır.

Digər önəmli məsələlərdən biri qeyri-neft sektorunun istehsal etdiyi malların ixracı ilə bağlıdır. Bu da indi uğurla inkişaf edən bir istiqamətdir. Həm islahatlar aparıldı, həm institusional tədbirlər görüldü, "Azexport" portalı yaradıldı. Azərbaycan brendi indi dünyada təbliğ edilir. Biz bir çox sərgilərdə iştirak etmişik və yenə də iştirak etməliyik. Müxtəlif ölkələrdə ticarət evləri yaradılır, ticarət-ixrac missiyaları həyata keçirilir. Müvafiq sərəncamlar verildi, vəsait ayrıldı. Xarici media vasitələrində reklam kampaniyaları aparılmalıdır ki, biz "Made in Azerbaijan" brendini tanıtdıraq.

Mən giriş sözümdə qeyd etdim ki, qeyri-neft sektorunun ixracı təxminən 10 faiz artmışdır, amma potensial daha da böyükdür. Ona görə, biz yeni ixrac bazarlarına çıxışı təmin etməliyik. Ənənəvi olan ixrac bazarlarına daha geniş çeşiddə məhsulla çıxmalıyıq. Eyni zamanda, yeni ixrac bazarlarını axtarmalıyıq. Logistika mərkəzləri yaradılmalıdır. İndi Qazaxıstanın Aktau vilayətində Azərbaycan Logistika Mərkəzi yaradılıb. Görürük ki, bunun böyük faydası var. Bir sözlə, bu, həm daxili istehsalı, eyni zamanda, valyuta gəlirlərimizi artırmaq üçün böyük əhəmiyyət daşıyan sahədir.

Təbii ki, həmişə olduğu kimi, il ərzində infrastruktur layihələrinə, onların icrasına diqqət yetiriləcəkdir. Elektrik enerjisi ilə təminat diqqət mərkəzindədir, yeni yarımstansiyalar tikilir, xüsusilə buna ehtiyac olan bölgələrdə. Bu layihələr kənd təsərrüfatının inkişafı ilə paralel şəkildə aparılmalıdır ki, həm əhaliyə, eyni zamanda, kənd təsərrüfatının inkişafına da xidmət göstərsin.

Azərbaycanda qazlaşdırmanın səviyyəsi 92 faizdir. Bu il daha da artacaq. İçməli su layihələri nəzərdə tutulan investisiya həcmində tam icra edilməlidir. Eyni zamanda, bu il biz kəndlərdə yaşayan əhalinin təmiz içməli su ilə təmin edilməsi üçün 270 kiçik layihə icra edəcəyik. Kənd yolları layihələri icra edilir. Bu il yüzlərlə kəndi birləşdirən layihələr icra ediləcək. Bakı şəhərində yeni yollar salınır, "Sovetski" adlanan ərazidə böyük yol infrastrukturu yaradılır, yaxın gələcəkdə istifadəyə veriləcək və ümumiyyətlə, şəhərimizin bu hissəsi gözəl bir məkana çevriləcəkdir. İndi işlər gedir, ilk növbədə, yollar çəkilir. Bu yollar əvvəlki yollardan öz gözəlliyi ilə fərqlənəcək. Əgər əvvəlki yolların eni 3-5 metr idisə, indi salınan yolların eni 15-20 metrdir. Yəni, bu, gələcəyə hesablanan və Bakıda nəqliyyatın hərəkətini böyük dərəcədə yüngülləşdirən bir layihədir. Bu yolun qurulması ilə paralel olaraq, bütün o zonada yaşıllıqlar, parklar salınacaq və şəhər sakinləri üçün yeni gözəl istirahət məkanı yaradılacaq.

Sosial infrastruktur layihələri icra edilir. Mənə verilən məlumata görə, qəzalı məktəblərin yerində artıq modul tipli 3 məktəb tikilibdir və əlavə modul tipli 12 məktəbin tikintisi nəzərdə tutulur. Bu il və gələn il Azərbaycanda bir dənə də olsun qəzalı məktəb qalmamalıdır. Bakı şəhərində məktəblərin böyük əksəriyyəti artıq təmirlidir, yeni məktəblər tikilib, hələ ki, harada təmirə ehtiyac var, bu məsələlər də öz həllini tapır.

Bölgələrdə məşğulluğun artırılması daim diqqət mərkəzindədir. Çünki bizdə əhali artır, bu il də, gələn illərdə də artacaq və artan əhali üçün gələcəkdə yeni iş yerləri lazım olacaq. Azərbaycanda demoqrafik vəziyyət çox yaxşıdır, əhali artır. Ancaq bu, bizi daha da fəal işləməyə sövq etməlidir. Ona görə, məşğulluğun artırılması həmişə gündəlikdə duran məsələ olacaqdır. Biz bunu həll edirik. Mən qeyd etdim ki, həm dövlət, həm özəl sektorda 70 min daimi iş yeri yaradılıbdır, mövsümi işlərlə bərabər 85 min. Bu, üç ay üçün böyük rəqəmdir və bu işləri davam etdirməliyik. Eyni zamanda, özünüməşğulluq proqramı geniş vüsət almalıdır. Artıq birinci addımlar atılıb və bu, həm dövlət orqanları, yerli icra orqanları, həm də özəl qurumlar tərəfindən həyata keçirilən layihələr olmalıdır. Çünki hər bir ailənin, yəni, hələ yoxsulluq şəraitində yaşayan ailənin imkanı olmalıdır ki, öz ehtiyacını özü ödəsin və biz bu imkanı yaratmalıyıq. Əlbəttə, dövlət çətin vəziyyətdə yaşayan vətəndaşlara həmişə qayğı, diqqət göstərir, ünvanlı sosial yardım proqramı icra edilir. Ancaq biz tədricən özünüməşğulluq sisteminə keçməliyik. Bu, vətəndaşlar üçün də daha əlverişlidir, daha yaxşıdır. Onların öz ailə büdcələri olacaq. Sadəcə biz onlara kömək etməliyik. Kənd yerində onlara şərait yaradılmalıdır, mal-qara, ev quşları verilməlidir. Arıçılıq, heyvandarlıq burada çox böyük rol oynaya bilər ki, onlar öz büdcələrini özləri təmin etsinlər. Amma dövlət əlbəttə ki, ilk mərhələdə onlara kömək göstərəcək. Ona görə, Nazirlər Kabineti özünüməşğulluq proqramına xüsusi diqqət yetirməlidir.

Bu il sahibkarlığın inkişafı ilə bağlı güzəştli kreditlərin verilməsi prosesi davam edir və 150 milyon manat məbləğində güzəştli kreditlər veriləcəkdir. Eyni zamanda, qeyd etməliyəm, son illər ərzində yenə də bizim siyasətimizə uyğun olan bir proses ondan ibarətdir ki, Azərbaycanda 32 iri fermer təsərrüfatı yaradılıb. Bu fermer təsərrüfatlarının əkin sahəsi 44 min hektardır. Hazırda 24 rayonda 142 min hektarda 33 aqropark yaradılır. Bu aqroparkların yaradılmasına xərclənən vəsait 1 milyard manat dəyərindədir. Bu 33 aqropark və bundan əvvəl yaradılmış 32 iri fermer təsərrüfatı məhsuldarlığın artmasına, daxili tələbatın ödənilməsinə və ixrac potensialının güclənməsinə çox böyük təsir edəcək. Xüsusilə nəzərə alsaq ki, bu aqroparklar və təsərrüfatlar müasir texnologiyalar əsasında qurulur.

Biz xarici sərmayənin cəlb edilməsi ilə bağlı daha da fəal iş aparmalıyıq - həm dövlət orqanları, həm də yerli icra orqanları. Yerli icra hakimiyyətləri də sərmayə cəlb etməlidirlər. Onlar həm yerli, həm xarici iş adamlarını maraqlandırmalıdırlar ki, gəlib investisiya qoysunlar. Yerlərdən təşəbbüs daha da geniş vüsət almalıdır. Bir məsələni də qeyd etmək istəyirəm ki, bizim büdcə təşkilatlarımız istifadə etdikləri elektrik enerjisinin dəyərini yüz faiz ödəməlidirlər.Bu il iki "ASAN xidmət" mərkəzi açılmalıdır - Quba və Mingəçevir şəhərlərində. İlin sonuna qədər bu, təmin edilməlidir. Vəsait nəzərdə tutulub və iki mərkəzin tikintisi aparılır - İmişli və Şəki şəhərlərində. Beləliklə, bu iki mərkəz də gələn il istifadəyə verilməlidir.

Qarşımızda duran əsas məsələlər bundan ibarətdir. Yenə də deyirəm, ilin birinci rübü ümidvericidir, bir daha onu göstərir ki, həm proqnozlarımız yerinə yetirilir, həm siyasətimiz uğurludur. Elə etməliyik ki, cari ilin sonuna qədər bu müsbət dinamikanı saxlayaq, ölkəmizi daha da gücləndirək.

# "Sosial mənzil"lər üzrə aylıq ödəniş açıqlandı

"Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) ilk layihəsi olan Yasamaldakı şəhərciyin ilk binasının üçüncü, məktəbin isə ikinci mərtəbəsi tikilməkdədir. Paralel olaraq növbəti 15 binanın tikintisinə başlanılıb".

Bunu MİDA-nın direktoru Samir Nuriyev bildirib.

Onun sözlərinə görə, bu ay növbəti 7 binanın, ümumilikdə isə 22 binanın paralel tikilməsi həyata keçiriləcək: "Bundan əlavə, həm su-kanalizasiya sisteminin, həm də elektrik xətlərinin çəkilməsi işləri həyata keçirilir. Bu layihədə 20 özəl şirkətin iştirakı gözlənilir. Təxminən 2000-2500 nəfərdən artıq yeni iş yerlərinin yaradılması nəzərdə tutulub".

S.Nuriyev əlavə edib ki, hal-hazırda Hövsan yaşayış kompleksinin baş planı üzərində işlər gedir: "Bu yaxınlarda işlər başa çatdırılacaq. Həmin ərazidə MİDA üçün 20 hektar torpaq sahəsi ayrılıb. Bu da 3000 mənzilin tikilməsi deməkdir. May ayının 1-dən elektron qeydiyyat prosesinə başlanılacaq".

Direktorun sözlərinə görə, MİDA-nın həyata keçirdiyi layihələrdə aylıq 130-150 manat ödəməklə birotaqlı, 300 manat ödəməklə isə üçotaqlı mənzillərə sahib olmaq olacaq.



**"Cari ilin 3 ayında dəmir yolları vasitəsilə ötən illə müqayisədə 11 faiz çox yük daşınıb".**



Bunu Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov deyib.

C.Qurbanov bildirib ki, Astara-Rəşt dəmir yolunun inşası başa çatdıqdan sonra Naxçıvan-Bakı qatarı işə salınacaq ki, bununla da Naxçıvan əhalisinin Bakı ilə dəmir yolu vasitəsilə asan əlaqəsi təmin olunacaq, həmçinin Naxçıvanda istehsal olunan məhsulların təqribən 30-32 saata paytaxt Bakıya daşınması mümkün olacaq.

Azərbaycan dəmir yollarının beynəlxalq nəqliyyat dəhlizlərinə inteqrasiya olunması üçün müvafiq infrastrukturun yaradılması istiqamətində lazımi tədbirlər görülməkdədir. Bakı-Tbilisi-Qars dəmir yolunun artıq bu il istismara verilməsi planlaşdırılır. Layihə çərçivəsində Gürcüstan ərazisində, Türkiyə sərhədinə qədər ümumilikdə 183 kilometr, o cümlədən 30 kilometr uzunluğunda Qars-Axalkalaki yeni dəmir yolunun inşası, Axalkalaki stansiyasında vağzal və təkər cütlərinin dəyişdirilməsi kompleksinin və 4450 metr uzunluğunda tunelin inşası reallaşdırılıb. Gürcüstan ərazisində Türkiyə sərhədinə qədər sınaq qatarının hərəkəti təmin edilib. Hazırda Türkiyə ərazisində layihənin tamamlanması istiqamətində işlər sürətləndirilib.

Şimal-Cənub və Cənub-Qərb beynəlxalq nəqliyyat marşrutları çərçivəsində Azərbaycan və İran dəmir yollarının birləşdirilməsinə dair işlərə başlanılıb. Görülən işlər nəticəsində, ümumilikdə, 16 kilometrdən çox dəmir yolunun və Azərbaycan - İran sərhədində, Astara çayı üzərində 82,5 metr uzunluğu olan körpünün tikintisi tam yekunlaşdırılıb, 2017-ci il martın 3-də ilk sınaq qatarı inşa edilən körpüdən keçərək İran ərazisinə daxil olub. İran ərazisində 1,4 kilometr uzunluğunda yolun və yük terminalının inşası isə hazırda davam edir.

Ümumiyyətlə, dünyada baş verən iqtisadi böhrana baxmayaraq, 2016-cı il ərzində Azərbaycan Respublikası dəmir yolları vasitəsilə 15,4 milyon ton yük daşımağa müvəffəq olub. 2017-ci ilin ilk üç ayı ərzində isə 3,8 milyon ton yük daşınıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11 faiz çoxdur. Bu tendensiya ölkəmizdə beynəlxalq yükdaşımalar üzrə aparılan son islahatların bariz nümunəsidir.

**Yavər Camalov: "Bu gün 10-dan çox ölkəyə Azərbaycanın istehsalı olan hərbi məhsullar ixrac olunur".**



"Aprel döyüşləri zamanı yerli istehsal olan bir sıra müdafiə təyinatlı məmulatlardan geniş istifadə olunub. Düşmənin canlı qüvvəsinin və döyüş texnikalarının dəqiq müəyyənləşdirilib məhv edilməsində Azərbaycan istehsalı olan yeni növ hərbi təyinatlı məhsullar mühüm rol oynayıb".

Bu barədə müdafiə sənayesi naziri Yavər Camalov prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib.

Nazir bildirib ki, Milli Ordunu daha müasir silahlar və texnikalarla təmin etmək məqsədilə qısa müddət ərzində yaradılmış yeni nəsil "Zərbə KM" (təsir gücü artırılmış qəlpəli-fuqaslı) pilotsuz uçuş aparatının sınaqları uğurla başa çatdırılıb və ötən ilin sentyabr ayında təqdimatı keçirilib: "Adıçəkilən məmulatın seriyalı istehsalı üzrə müqavilələr bağlanıb və istehsal edilərək sifarişçilərə təhvil verilib. Hazırda düşmənin canlı qüvvəsini, hərbi texnikasını və hərbi obyektlərini 100 kilometr məsafədə tam müəyyən edən və məhv etmək iqtidarında olan "Zərbə KH" (kumulyativ başlıqlı) pilotsuz uçuş aparatının yaradılması istiqamətində intensiv işlərə başlanılıb. Eləcə də ötən ilin sentyabr ayında Bakıda keçirilən ADEX-2016 Beynəlxalq müdafiə sərgisində göstərilən "Tufan" milli zirehli maşını üzrə işlər uğurla başa çatdırılıb və cari ilin fevral ayında Müdafiə Nazirliyi və digər güc strukturlarının aparıcı mütəxəssislərinin iştirakı ilə təqdimatı keçirilib".

Yavər Camalov bildirib ki, 2017-ci ilin istehsal proqramına əsasən, Müdafiə Nazirliyi və digər güc qurumları tərəfindən verilmiş sifarişə uyğun olaraq, 123,7 milyon manat məbləğində müdafiə təyinatlı məmulatların istehsalı, təmiri və utilizasiyası nəzərdə tutulur: "Birinci rübdə ümumi məhsul istehsalının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,7 faiz artıb. Əldə olunan artım ixrac əməliyyatları hesabına təmin edilib. İstehsal olunan məhsulların 88,3 faizini müdafiə və xüsusi təyinatlı məmulatlar təşkil edir. İstehsalı mənimsənilmiş müdafiə təyinatlı məmulatların çeşid sayı 1200-ə çatdırılıb".

Nazir qeyd edib ki, hazırda 10-dan çox ölkənin müvafiq qurumlarına Azərbaycanın istehsalı olan hərbi məhsulların ixracı həyata keçirilir: "Bağlanmış müqavilələrin dəyəri 101 mln. ABŞ dolları təşkil edir. Bu məbləğin 57 milyon dolları icrada olan müqavilələrdir, qalan 44 milyon dolları isə qarşı tərəfdən son istifadəçi sertifikatları təqdim edildikdən sonra qüvvəyə minəcək".

**"2017-ci ilin birinci rübündə ayrı-ayrı yükdaşıma növlərində artım müşahidə edilib".**



Bu sözləri Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev deyib.

O, bildirib ki, son üç il ərzində Gəmiçiliyin donanmasına 15 gəmi alınaraq istismara verilib. Bu işlərə Gəmiçiliyin daxili imkanları hesabına 139 milyon ABŞ dolları investisiya yatırılıb.

Gəmiçiliyin fəaliyyət sahələrinin şaxələndirilməsi və bir bazardan asılılığının azaldılması ilə əlaqədar dövlət başçısının verdiyi tapşırıqlara uyğun olaraq, 2014-cü ildə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Xəzərdən kənar beynəlxalq sularda fəaliyyətini bərpa edib: "Hazırda Xəzərdən kənarda Azərbaycan bayrağı altında 10 gəmi fəaliyyət göstərir.

R.Vəliyev qeyd etmişdir ki, son illər ölkəmizdə həyata keçirilən irimiqyaslı infrastruktur layihələri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə əlaqədar Xəzər dənizi üzərindən artması gözlənilən yükdaşıma həcmlərinin qarşılanması üçün donanmamızın davamlı olaraq yenilənməsi çox vacibdir: "Bu baxımdan Bakı gəmiqayırma zavodu böyük əhəmiyyət kəsb edir. Bu zavod tərəfindən Gəmiçilik üçün indiyədək dörd gəmi tikilərək istifadəyə verilib. Bu yaxınlarda daha dörd gəminin-vaqon-TIR və sərnişin daşınması üçün nəzərdə tutulan yeni nəsil iki unikal Ro-Pax/Bərə və iki tankerin tikintisi üzrə yeni sifariş verilib.

Hazırda Bakı gəmiqayırma zavodunda təkcə Xəzərdə deyil, dünya miqyasında təyinatına görə nadir gəmi sayılan "Xankəndi" gəmisi inşa edilir. Cari ilin ortalarında istifadəyə verilməsi planlaşdırılan bu çoxtəyinatlı sualtı tikinti gəmisi Xəzərdə müxtəlif mürəkkəb layihələrin, o cümlədən "Şahdəniz" layihəsinin yerinə yetirilməsində mühüm rol oynayacaq.

Son üç il ərzində Gəmiçiliyin gəlirləri, xalis mənfəəti, dövlət büdcəsinə müxtəlif formada ödənişlər davamlı olaraq ilbəil artım dinamikası ilə inkişaf edir. Gəmiçiliyin 2016-cı il üçün mənfəəti 2015-ci il ilə müqayisədə iki dəfə artıb. Təkcə 2016-cı il ərzində Gəmiçiliyin dövlət büdcəsi və Dövlət Sosial Müdafiə Fonduna ödənişləri, ümumilikdə, 100 milyon manata yaxın məbləğ təşkil edib.

Gəmiçiliyin dövlət büdcəsindən ayrılan vəsait hesabına tikilmiş və 2010-cu ildə istifadəyə verilmiş "Zığ quru yük limanı"ndan 2016-cı ildə 100 min tona yaxın quru yük, o cümlədən 3 min ədəd TIR, 2017-ci ilin birinci rübündə isə 49 min ton quru yük, o cümlədən 1600 ədəd TIR daşınıb".

## 3 zavoddan ibarət kombinat tikilir

"Ağstafa Aqroservis" MMC-nin ikinci layihəsi olan Ağstafa Taxıl və Un Məmulatları İstehsalı Kombinatının inşasına 2015-ci ilin martında başlanılıb. Hazırda tikinti işləri sürətlə davam etdirilir və işlərin başa çatdırılması cari ilin may ayına nəzərdə tutulub.

Kombinat 3 zavoddan ibarət olacaq. Bunlar "Toxumluq taxıl emalı", "Taxıl emalı və un istehsalı" və "Çörək və yarımfabrikatlar istehsalı" zavodlarıdır.

Layihə çərçivəsində saatda 1 ton istehsal gücünə malik çörək zavodu, 30 min tonluq taxıl, 2 min tonluq un rezervuarları, hazır məhsul anbarı, ikimərtəbəli fast-fud iaşə obyekti, 140 yerlik yeraltı avtomobil dayanacağı, yem anbarı yaradılacaq.

Ümumi sahəsi 2 min kvadratmetr olacaq fast-fud iaşə obyektində kompleksin istehsal etdiyi çörək, un və qənnadı məhsulları təqdim ediləcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# DAĞLAR QOYNUNDA YERLƏŞƏN YARDIMLI UCALIĞA VƏ ZİRVƏYƏ GEDƏN YOLDADIR

Son on üç ildə ölkədə istehsal edilən məhsulun həcmi 3 dəfə, dövlət büdcəsinin nominal gəlirləri 20 dəfə, əsaslı kapitala qoyulan investisiyalar 5,6 dəfə, qeyri-neft məhsullarının icrası 3,3 dəfə, əhalinin nominal gəlirləri 8 dəfə, orta aylıq əməkhaqqı 6,4 dəfə artıb, 1 milyon 677 min yeni iş yeri açılıb, 250 min qaçqın və məcburi köçkünün sosial və mənzil-məişət probleminin həll olunmasına 5,2 milyard manat vəsait xərclənilib. Bu müddət ərzində 10 min kilometr avtomobil yolları, 3 min məktəb, 600 xəstəxana, 400-dən çox mədəniyyət və turizm obyekti, 50 idman kompleksi tikilib istifadəyə verilib, 26 elektrik stansiyası inşa edilib. Respublikanın bütün bölgələrinin tarazlı inkişafını təmin edən regionların sosial-iqtisadi inkişafına dair üç mərhələ dövlət proqramlarının icrasına bütün mənbələr hesabına 60 milyard manatdan çox maliyyə vəsaiti yönəldilib. Həyata keçirilən sistemli və ardıcıl tədbirlər nəticəsində respublikanın hər bir şəhəri, kəndi, qəsəbəsi köklü şəkildə dəyişib, abadlaşıb, müasirləşib. Elə bir rayon tapmaq çətindir ki, inkişaf və yüksəliş dalğasından kənarda qalsın. Hətta ucqar dağ rayonlarında da eyni səviyyədə tarazlı inkişaf özünü göstərib. Belə rayonlardan biri də Yardımlıdır. Artıq bu yerlərdə yazın ılıq nəfəsi duyulur, dağlar, yamaclar yaşıl dona bürünüb, gül-çiçəyin ətri insanı bihuş edir. Dağ adamlarının xarakteri də möhkəmdir, iradələri də güclüdür. Zarafat gəlməsin, 5-6 ay davam edən qışın şıltaqlığına sinə gərmək, malı-davarı sağ-salamat yaza çıxarmaq asan məsələ deyil. Hələ keçən əsrin 20-ci illərində Azərbaycanda sovet hakimiyyəti qurularkən bolşevik hökuməti müqavimətlə üzləşdiyindən bir il gecikmə ilə Yardımlıda şura quruluşunu bərqərar edə bilib. Bundan sonra beş-altı il burada İran əsginazları işləyib. Sovet rejimində yüksək dağlıq ərazidə yerləşdiyinə görə Yardımlıya fikir verən olmayıb, necə deyərlər, rayon uzun illər inkişafdan kənarda qalıb. Yalnız ötən əsrin 70-ci illərində Azərbaycan Respublikasına rəhbərliyə gələn Heydər Əliyevin xüsusi diqqəti və qayğısı nəticəsində Yardımlının üzünə günəş doğdu. İstər həmin dövrdə, istərsə də müstəqillik illərində Yardımlı dinamik inkişaf yoluna çıxarıldı. Yaşayış məntəqələrinə qaz, işıq çəkildi, əlçatmaz kəndlərə yollar salındı, körpülər tikildi, rabitə sistemi yaradıldı.

**Cənab Prezident İlham Əliyevin Yardımlı rayonuna hər bir səfəri neçə-neçə sosial infrastruktur obyektinin açılışı ilə əlamətdar olub. Son illər Yardımlıda aparılan tikinti-quruculuq və abadlıq işləri nəticəsində yeni-yeni ictimai binalar, sosial obyektlər, yaşayış evləri, təhsil, səhiyyə, mədəniyyət ocaqları tikilib, parklar, xiyabanlar salınıb, küçələrin işıqlandırma sistemi yenilənib, 45 il qəsəbə olmuş rayon mərkəzinə şəhər statusu verilib. Necə deyərlər, kiçik bir yaşayış məntəqəsi hamının gözü qarşısında gözəl, yaraşıqlı, müasir bir şəhərə çevrilib. Bu, dövlətin gücünün, dövlət başçısının iradəsinin real təcəssümüdür.**

Dövlət tərəfindən Yardımlının sosial-iqtisadi problemlərinin həllinə göstərilən dəstək, çoxsaylı layihələrin gerçəkləşməsi və bu işlərin dayanmaq bilmədən davam etdirilməsi yardımlıların qəlbində hədsiz razılıq və məmnunluq hissləri doğurub. Bu tədbirlərin yüksək şəkildə icra olunmasında rayon rəhbərliyi də əlindən gələni əsirgəməyib, hər bir yerli təklif, təşəbbüs dolğun formada dəstəklənib. Rayonda Qarabağ uğrunda döyüşlərdə həlak olan şəhid və veteran ailələri üçün yaşayış evləri inşa olunub, əhalinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə Gineyir adlanan ərazidən rayon mərkəzinə xüsusi su xətti çəkilib, kəndlərdə artezian quyuları qazılıb, turizmin inkişafı ilə bağlı zəruri addımlar atılıb. Keçən il rayonda tikinti-quruculuq işləri, yerli əhəmiyyətli avtomobil yollarının asfalt və çınqıl örtüklə təmiri, əhalinin içməli su ilə təchizatı, məktəb tikintisi, kommunal yaşayış evlərinin dam örtüyünün dəyişdirilməsi və digər infrastruktur layihələrinin icrası həyata keçirilib. Yardımlı şəhərinin Heydər Əliyev küçəsində, 20 Yanvar küçəsində yolun üst hissəsində yüzlərlə metr uzunluğunda istinad divarları tikilib, yol genişləndirilərək eni 6-7 metrə çatdırılıb. Üç kommunal yaşayış binasının dam örtüyü dəyişdirilib. Kənd yaşayış məntəqələrində inzibati binaların tikintisi davam etdirilib. Zeynəlæzir kəndində 40 yerlik inzibati məktəb tikilərək, müəllim və şagirdlərin ixtiyarına verilib. Honuba-Şıxlar və Avaş kəndlərində tibb məntəqələri tikilib istifadəyə verilib. Qəzalı vəziyyətə düşmüş fərdi yaşayış evlərinin yerinə yenilərinin tikintisinə başlanılıb.



Bundan başqa, Noraxar və Şəfəqli kəndlərində iki şəhid ailəsi üçün birmərtəbəli, dörd otaqlı müasir evlər tikilir. Digər şəhid ailələri üçün də fərdi yaşayış evlərinin tikintisi ilə bağlı əlaqədar təşkilatlara rəsmi müraciətlər edilib.

Yardımlıları ən çox narahat edən bir problem – rayondaxili, kəndlərarası yolların təmiri və çaylar üzərində körpülərin salınması ardıcıl olaraq öz həllini tapır. Bu istiqamətdə görülən tədbirlər nəticəsində bir çox kəndarası və kənddaxili yollar təmir olunub və ya əsaslı şəkildə yenidən qurulub. Rayonun 7 kəndində – Gendərə, Astanlı, Separadi, Horonu, Şilxəndə, Vərgədüz və Dəlləklidə ümumi uzunluğu 33 kilometr olan daxili yollara çınqıl örtük döşənib. Son illərdə rayonda, ümumilikdə 210 kilometrlik yol əsaslı təmir edilib və ya çınqıllanıb. Bu yolların 104 kilometri asfalt, 106 kilometri isə çınqıl örtükləridir. Həmçinin, Viləş çayı üzərində, Keçələkaran kəndinə gedən yolda yükgötürmə qabiliyyəti 80 ton olan körpü qurulub. Teşkan kəndində isə yükgötürmə qabiliyyəti 50 ton olan yeni körpü salınıb. Yardımlı şəhərinə 72 kilometrlik su və 45 kilometrlik kanalizasiya xəttinin çəkilişi son mərhələdədir. Nəzərdə tutulmuş 10 ədəd su ambarından 9-da və çirkab təmizləyici qurğusunda inşaat işləri aparılır. Kəndlərə də içməli su çəkilişi davam edir. Ölkə başçısının sərəncamı ilə Urağan və Zevin kəndlərində artezian quyuları qazılıb. Keçən ilin avqust ayında Vəron kəndinə içməli su xətti çəkilərək istifadəyə verilib. Eyni zamanda, Gineyirdən çəkilən su xətti Yolocaq və Horunu kəndlərinə qədər çatdırılıb.

**Ötən ilin noyabr ayında isə həmin su xəttinin açılışı olub. Ötən müddət ərzində yaşayış məntəqələrinin qazlaşdırılması işləri davam etdirilib. Rayonda mavi yanacaq alanların sayı 2353-ü əhali kateqoriyası olmaqla, 3372 abonentə çatdırılıb. 2016-cı ilin oktyabr ayında isə 241 abonenti olan Vərgədüz kəndinə təbii qaz verilib. Qış aylarında hər hansı qəzanın baş verməməsi üçün xətlərdə təmir işləri aparılıb.**

Rayonun elektrik təsərrüfatı da gücləndirilib. Əhalinin elektrik enerjisi ilə fasiləsiz təchiz olunması məqsədilə şəbəkəyə 1000-ə yaxın elektrik dayağı gətirilib, xətlərdə təmir işləri aparılıb, transformatorlar yenilənib. Masallı-Yeni Yardımlı 35 kilovoltluq elektrik verilişi xətlərində, «Yel Bərəsi» adlanan ərazidə ara məsafələr qısaldılaraq dayanıqlılıq təmin edilib. Qəzalı xətlər sayılan Allar və Şıxhüseynli kəndlərinin elektrik xətlərində isə kompleks yenidənqurma işlərinə başlanılıb.

Yuxarıda da deyildiyi kimi, Yardımlıda işlərin yüksək şəkildə təşkilini şərtləndirən mühüm amillərdən biri rayon icra hakimiyyəti və digər müvafiq strukturlar ilə əhali arasında yaxşı əməkdaşlıq əlaqələrinin qurulmasıdır. İcra hakimiyyəti təmsilçiləri mütəmadi olaraq yerlərdə olur, əhali ilə görüşlər keçirir, fikir mübadiləsi aparır, cari və perspektiv fəaliyyət konturları müəyyən edirlər. Yerli təşəbbüslərin dəstəklənməsi, təsərrüfat subyektlərinin, fermerlərin işinə lazımi dəstəyin göstərilməsi sonucda müsbət meyillərin baş qaldırmasına gətirib çıxarır. Yardımlı dağ rayonudur. Burada inkişaf da var, müəyyən çətinliklər və problemlər də mövcuddur. Belə problemlərdən danışarkən əhalinin məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması ön mövqeyə çıxır. Yuxarıda göstərildiyi kimi, rayonda bir sıra zəruri infrastruktur tədbirləri görülüb və bu tədbirlərin görülməsi davam etdirilir.

Bütün bunlar isə azad sahibkarlığın və aqrar bölmənin inkişafına geniş imkanlar açır. Dağlıq bölgə olan Yardımlıda istər kənd təsərrüfatının, istər heyvandarlığın, istərsə də turizmin inkişafı sahəsində böyük potensial vardır. Rayonun iqtisadi strukturunda yem bitkilərinin əkilməsi, iri və xırda heyvandarlıq, quşçuluq təsərrüfatlarının şəbəkəsinin genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Açığını etiraf etmək lazımdır ki, hələ ki sözügedən istiqamətlər və sahələr üzrə yüksək inkişaf tempi əldə olunmayıb. Bundan başqa, arıçılıq təsərrüfatlarının genişləndirilməsinə, arı məhsulları istehsal edən müəssisələrin yaradılmasına ciddi ehtiyac duyulur.

Rayonda, həmçinin kənd turizminin, ailə turizminin, ekoturizmin geniş yayılması sahəsində də kompleks tədbirlər görülməlidir. Göstərilən sahələr üzrə sürətli inkişaf tempinə nail olunarsa, qısa müddətdə rayonda əhalinin məşğulluğunun təmin edilməsi ilə bağlı böyük irəliləyişlər əldə oluna bilər. Bu isə insanların rahat və firavan həyatının təmin olunması deməkdir.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# AZƏRBAYCAN AUDİTİ – 2016

*«...Ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlı olan müstəqil auditin ölkəmizdə formalaşdırılması və onun normativ hüquqi bazasının yaradılması qısa zaman kəsiyində maliyyə nəzarətinin bu müstəqil növünün uğurlu inkişafına imkan yaratmışdır. Ölkəmizdə auditor fəaliyyətinin dövlət tənzimlənməsi Auditorlar Palatası tərəfindən həyata keçirilir. Auditorlar Palatasının fəaliyyəti dövründə ölkədə beynəlxalq audit standartlarının tətbiqi reallaşdırılmış, daxili audit xidmətinin korporativ idarəetmə sisteminin ayrılmaz elementinə çevrilməsi, auditorların fəaliyyətinə effektiv nəzarətin qurulması sahəsində xeyli iş görülmüşdür. Palata beynəlxalq və regional peşə qurumlarında, o cümlədən Beynəlxalq Mühasiblər Federasiyası kimi çox nüfuzlu bir təşkilatda ölkəmizi layiqincə təmsil edir».*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1994-cü il 16 sentyabr tarixində imzaladığı "Auditor xidməti haqqında" Qanuna əsasən bərqərar olmuş Azərbaycan auditi 20 il ərzində uğurlu bir inkişaf yolu keçmişdir.

2003-cü ildən başlayaraq ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycan auditinə göstərdiyi daimi diqqət və qayğının nəticəsində audit keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş və onun ölkənin iqtisadi-sosial həyatında rolu və əhəmiyyəti daha da artmışdır. Bunlar, eyni zamanda, ölkə prezidentinin müstəqil auditor xidməti qarşısında qoyduğu beynəlxalq audit standartlarının və praktikasının ölkəmizdə tətbiqi kimi mühüm vəzifələrin icrası sayəsində mümkün olmuşdur. Hələ 12 il bundan əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev auditi belə dəyərləndirmişdir: "Bu gün Azərbaycanda audit xidməti iqtisadiyyatın və regionların inkişafı sahəsində genişmiqyaslı proqramların həyata keçirilməsi, ölkənin qeyri-neft sektoruna investisiya axının gücləndirilməsi, sahibkarlığın inkişafı, əhalinin məşğulluğunun yüksəldilməsi, yoxsulluğun azaldılması və xalqın rifah halının yaxşılaşdırılması ilə bağlı iqtisadi siyasətin aparılmasında mühüm rol oynayır. İndiki mərhələdə maliyyə intizamına ciddi əməl olunması, pul vəsaitlərindən səmərəli istifadə edilməsi xüsusi əhəmiyyət kəsb edir və bu baxımdan da audit həmin vəzifələrin uğurla yerinə yetirilməsində ön sıralarda olmalıdır."

Müasir reallıqla həmahəng səslənən bu fikirlər ölkə prezidentinin uzaqgörən siyasətinin və dərin düşünülmüş dövlət quruculuğu strategiyasının bariz nümunəsidir.

Auditorlar Palatası 2016-cı ildə öz fəaliyyətini "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə, ölkə prezidenti tərəfindən imzalanmış digər qanun, fərman və sərəncamlara, habelə Palata Şurasının 2015-ci il 18 dekabr tarixli 271/1 saylı qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının və Palata Şurasının 2016-cı il üzrə iş planlarına, Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasına (2012-2020-ci illər), eləcə də Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) həqiqi üzvü kimi üzərinə götürdüyü öhdəliklərə və digər sənədlərə müvafiq olaraq qurmuş və ölkənin iqtisadi-siyasi həyatında fəal rol oynamışdır.

2016-cı il Auditorlar Palatası üçün çox əlamətdar olmuşdur. Belə ki, Palatanın fəaliyyətə başlamasının 20 ili tamam olmuşdur. Bu münasibətlə Azərbaycan Respublikası Auditorlar Palatasının kollektivinə və üzvlərinə ünvanlandığı 2016-cı il 4 aprel tarixli müraciətdə ölkə prezidenti göstərmişdir:

"Büdcə xərclərinə nəzarəti və maliyyə intizamını gücləndirmək, gəlirlərdən səmərəli istifadəni təmin etmək cəmiyyəti qayğılandıran məsələlərdəndir. Şəffaflıq olmadan qazanılan iqtisadi uğurların davamlılığını və sosial rifahını təmin etmək mümkün deyildir. Əldə olunan iqtisadi nailiyyətlər və sosial tərəqqi müdrik Heydər Əliyev tərəfindən əsası qoyulan və hazırda uğurla davam etdirilən strategiya nəticəsində mümkün olmuşdur. Çox xoşdur ki, Azərbaycanın indiyə kimi qazandığı iqtisadi uğurlar və hazırda həyata keçirdiyimiz islahatlar dünyanın nüfuzlu maliyyə qurumları tərəfindən lazımınca qiymətləndirilir. Bu isə öz növbəsində, bizim hər birimizdən daha şəffaf və səmərəli işləməyi tələb edir. Şəffaflıq, eyni zamanda, korrupsiyaya qarşı mübarizədə nəzarət orqanlarının işini asanlaşdırır.

Dövlət orqanlarının həyata keçirdiyi nəzarətlə yanaşı, ictimai nəzarətin, o cümlədən müstəqil auditin rolu getdikcə artır. Müstəqil audit maliyyə və vergi intizamının gücləndirilməsində, vəsaitlərin təyinatına uyğun və qənaətlə xərclənməsində aşkarlığı təmin edən əsas vasitələrdən biridir. Eyni zamanda, yeni dövrün çağırışlarını nəzərə alaraq, iqtisadi islahatların indiki mərhələsində audit sistemini yenidən qurmaq, onun təsirliliyini artırmaq və beynəlxalq aləmə inteqrasiyasını gücləndirmək sahəsində çox iş görülməlidir."

Azərbaycanda auditor xidmətinin inkişafı və tətbiqinin genişləndirilməsi son dövrlərdə qəbul olunmuş və uğurla yerinə yetirilmiş bir sıra mühüm dövlət proqramlarında müstəqil auditin vacib problemlərinin müəyyənləşdirilməsi və həlli sayəsində mümkün olmuşdur. Şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, maliyyə hesabatlığının təkmilləşdirilməsi, maliyyə vəsaitlərindən istifadənin səmərəliliyinin artırılması, açıq və demokratik prinsiplərə əsaslanan dövlət quruculuğunun sürətləndirilməsi, regionların və sahibkarlığın süni maneələr və müdaxilələr olmadan inkişaf etdirilməsi kimi mühüm məqsədləri özündə ehtiva edən Dövlət Proqramları çərçivəsində Auditorlar Palatası bir çox mühüm problemlərin həllinə cəlb olunmuşdur. Ötən dövr ərzində Auditorlar Palatası 7 dövlət proqramının iştirakçısı olmuş və üzərinə düşən vəzifələri tam yerinə yetirmişdir. 2016-cı ildə də bu sahədə işlər uğurla davam etdirilmişdir.

Auditorlar Palatası qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq qurumlarla birgə dövlətimizin mənafeyinin qorunması istiqamətində prinsipial mövqeyə əsaslanan fəaliyyətini bu gün də davam etdirir.

Ötən illərdə olduğu kimi, 2016-cı ildə də Azərbaycan auditinin əldə etdiyi uğurlar, onun möhtərəm prezidentimizin sözlərilə desək, Azərbaycanın iqtisadi qüdrətinin möhkəmləndirilməsinə xidmət etməsi ölkəmizdə auditin inkişafına güclü siyasi dəstəyin mövcudluğu ilə əlaqədardır ki, buna görə də, Azərbaycan auditorları ilk növbədə ölkə Prezidentinə minnətdardırlar. Qətiyyətlə demək olar ki, belə diqqət və qayğı dünyanın heç bir ölkəsinin auditorlarına müyəssər olmamışdır.

Azərbaycan Respublikası Auditorlar Palatasının 2016-cı il üzrə iş planı auditin təşkili və tənzimlənməsi, beynəlxalq audit standartlarının tətbiqi, keyfiyyətə nəzarət, etika və şəffaflığın təminatı, kadr hazırlığı, beynəlxalq əlaqələr, nəşrlər, konfranslar və seminarlar, maliyyə-informasıya təminatı, palatadaxili tənzimləmə istiqamətlərində Palatanın fəaliyyətini özündə ehtiva etdirmişdir. İş planına uyğun olaraq aşağıdakı istiqamətlər üzrə nəzərdə tutulmuş işlər yerinə yetirilmişdir:

- Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf Konsepsiyasında (2012-2020-ci illər) nəzərdə tutulan tədbirlərin icrası;
- audit qanunvericiliyinə dair normativ-hüquqi aktların layihələrinin hazırlanması;
- auditor xidməti ilə əlaqədar təlimatlar, tövsiyələr və metodik göstərişlərin hazırlanması;
- təsərrüfat subyektlərində 2015-ci ildə aparılmış auditlər barədə vahid məlumatların reyestrinin hazırlanması;
- auditorların və auditor təşkilatlarının akkreditasiyası və qeydiyyat işlərinin mövcud qanunvericiliyə uyğun olaraq təkmilləşdirilməsi;
- könüllü və əlaqədar xidmətlərin genişləndirilməsi üzrə tədbirlər sisteminin tətbiqi;
- iqtisadi sahələr və ölkənin regionları üzrə audit sahəsində analitik informasiya sisteminin yaradılması və təhlili;
- məcburi auditdən yayınmanın qarşısının alınması ilə bağlı tədbirlərin görülməsi;
- dempinq və haqsız rəqabətə qarşı tədbirlər sisteminin işlənib hazırlanması və tətbiqi;
- auditin təşkilinə dair xarici təcrübənin öyrənilməsi və tətbiqi;
- Beynəlxalq Audit Standartların tətbiqi ilə əlaqədar tədbirlərin davam etdirilməsi;
-Beynəlxalq Audit Standartlarının tətbiqinə dair İFAC-ın və digər peşəkar qurumların metodiki vəsaitlərinin tərcüməsi və tətbiqi;
- auditor təşkilatları və sərbəst auditorların korrupsiyaya qarşı mübarizə işinin təşkili üzrə metodik göstərişlərin hazırlanması;
- "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun auditor təşkilatları və sərbəst auditorlar tərəfindən tətbiqinə dair metodiki tövsiyələrin hazırlanması;
- auditor təşkilatlarında korrupsiyaya qarşı mübarizə məqsədi ilə keyfiyyətə daxili nəzarətin prinsipləri və prosedurları haqqında təlimatın hazırlanması;
- Auditorlar Palatasının fəaliyyətinə ictimai nəzarətin təşkili üzrə zəruri tədbirlərin həyata keçirilməsi;
- auditorların ixtisaslarının yüksəldilməsi;
- audit və mühasibat uçotu üzrə tədris proqramının hazırlanmasında ali təhsil müəssisəsinə əməli köməkliyin göstərilməsi;
- IFAC-a təqdim edilmək üçün Auditorlar Palatasının fəaliyyət planının hazırlanması və göndərilməsi; beynəlxalq audit və mühasibat qurumları tərəfindən təşkil olunan konfranslarda, forumlarda, simpoziumlarda və digər tədbirlərdə Palata təmsilçilərinin iştirakının təmin edilməsi;
- Auditorlar Palatasının üzv olduğu beynəlxalq peşəkar qurumlarla müvafiq işlərin aparılması;
- auditə dair kitabların, dərs vəsaitlərinin, məlumat və təbliğat xarakterli materialların nəşr etdirilməsi;
-IFAC-ın Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tərcüməsi, redaktəsi, nəşri və sahəvi audit proqramlarının 4-cü nəşri (Palatanın internet səhifəsində yerləşdirilmişdir);
- auditin aktual problemləri üzrə konfransların, simpoziumların, "dəyirmi masa"ların və seminarların təşkili;
- Palatanın internet səhifəsinin təkmilləşdirilməsi;
- Auditorlar Palatasının fəaliyyəti barədə ictimaiyyətin müntəzəm məlumatlandırılması.

Auditorlar Palatası Əsasnaməsində nəzərdə tutulmuş vəzifə və funksiyalarla yanaşı, bir sıra mühüm əhəmiyyət kəsb edən Dövlət Proqramlarının icrasında da iştirak etmişdir. O cümlədən:

I. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli 1993 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" və orada nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı aşağıdakı işlər görülmüşdür:

- Dövlət orqanlarının internet səhifələrinin mobil versiyalarının hazırlanması, sosial şəbəkələrdə səhifələrin açılması və onların aktiv fəaliyyətinin təmin edilməsi;
- "ASAN xidmət" mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartlarının dövlət orqanlarında tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi;
- Sahibkarların qarşılaşdıqları problemlərin həlli məqsədi ilə onların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi və müvafiq tədbirlərin görülməsi;
- İqtisadi sahədə həyata keçirilən islahatlar, onların məqsədi və mahiyyəti barədə ictimaiyyətin məlumatlandırılmasının təmin edilməsi;
- Özəl sektorda şəffaflığın təmin edilməsi və korrupsiyanın qarşısının alınması məqsədi ilə antikorrupsiya, şəffaflıq, etik davranış və hesabatlılıq tələbləri (uyğunluq mexanizmi) üzrə təkliflərin hazırlanması;
- Açıq hökumət və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşan beynəlxalq təşkilatlar və xarici ölkələrin aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq əlaqələrinin təkmilləşdirilməsi, tövsiyə və tələblərin icrası üzrə tədbirlərin həyata keçirilməsi;
- Müxtəlif hədəf qrupları, o cümlədən dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə və etik davranış üzrə təhsil-tədris proqramlarının hazırlanması, təlim və treninqlərin keçirilməsi, belə təşəbbüslərin dəstəklənməsi;
- Dövlət orqanlarının daxili nəzarət qurumları ilə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar arasında məlumat mübadiləsi və səmərəli əlaqələndirmənin təşkili;
- Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsi.

II. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 noyabr tarixli 2451 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"nda Auditorlar Palatasına icrasının təmin edilməsi tövsiyə olunan işlərin həyata keçirilməsi istiqamətində aşağıdakı işlərin görülməsi Palatanın 2017-2019-cu illər üçün iş planında nəzərdə tutulmuşdur:

1. Auditorlar Palatasında auditor xidməti sahəsində PL/TM-ə qarşı mübarizə üzrə qanunvericiliyin icrasına məsul şəxslərin təyin edilməsi.
2. Auditorlar Palatasının tərkibində PL/TM-ə qarşı mübarizə sahəsində nəzarəti həyata keçirəcək struktur bölmənin müəyyən edilməsi.
3. Auditorlar üçün PL/TM-ə qarşı mübarizə üzrə təlim strategiyasının və ona uyğun təlim proqramlarının hazırlanması və icrası məqsədilə tədbirlər görülməsi.
4.Auditor təşkilatlarına və sərbəst auditorlara qanunvericiliyin tələblərinə uyğun olaraq PL/TM-ə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və effektiv tətbiqi üzrə metodiki dəstəyin təmin edilməsi.
5. Auditorlara müştəri və benefisiar mülkiyyətçilərin eyniləşdirilməsi, verifikasiyasına dair məlumat bazasının yaradılması və PL/TM risklərinin müəyyən edilməsi, əməliyyatların və riskli müştərilərin monitorinqinə imkan verən informasiya sisteminin tətbiqi üzrə metodiki dəstəyin təmin edilməsi.




6. Auditorlara şübhəli əməliyyatların aşkarlanması indikatorlarının və PL/TM tipologiyalarının müəyyən edilməsi və müntəzəm olaraq yenilənməsi məqsədilə metodiki dəstəyin təmin edilməsi.
7. Auditorlara "öz müştərini tanı", o cümlədən müştəri qəbulu siyasətinin formalaşdırılması üzrə metodiki dəstəyin təmin edilməsi.
8. Auditorların PL/TM-ə qarşı mübarizə üzrə məsul şəxsin eyniləşdirilmə, hesab və əməliyyatlar üzrə məlumatlara çıxışının təmin edilməsinə metodiki dəstəyin təmin edilməsi.
9. Auditor təşkilatlarında PL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin effektivliyinin müəyyən edilməsi üçün daxili audit yoxlamalarının nəticələrinin qiymətləndirilməsi.
10. Auditorlar Palatasının PL/TM-ə qarşı mübarizə sahəsində yoxlamalara cəlb edilən işçi heyəti üçün təlimlərin keçirilməsi.
11. Auditorlar Palatası tərəfindən risk əsaslı nəzarət proqramının hazırlanması və tətbiqi üzrə tədbirlərin görülməsi.
12. Maliyyə Bazarlarına Nəzarət Palatasına Auditorlar Palatasından və onun üzvləri olan auditor təşkilatlarından və sərbəst auditorlardan daxil olan şübhəli əməliyyatlar barədə məlumatların keyfiyyətinə nəzarət və geriyə məlumatlandırma sisteminin qurulması üzrə tədbirlər görülməsi.
13. Auditorlar Palatasının və onun üzvləri olan auditor təşkilatlarının və sərbəst auditorların Maliyyə Bazarlarına Nəzarət Palatasının məlumat bazasına qoşulmasının təşviqi və təmin edilməsi.
14. Auditorlar Palatası tərəfindən PL/TM-ə qarşı mübarizə üzrə risk qiymətləndirmələrinin həyata keçirilməsi üzrə tədbirlər görülməsi.

2016-cı il ərzində 38 sərbəst auditorun, 67 auditor təşkilatının (o cümlədən 4 xarici auditor təşkilatının filialı və nümayəndəliyi və 18 xarici investisiyalı auditor təşkilatı) auditor fəaliyyətini həyata keçirmək hüququ olmuşdur.

37 sərbəst auditor və 67 auditor təşkilatı tərəfindən Auditorlar Palatasına öz fəaliyyətlərinə dair hesabatlar təqdim edilmişdir. Təqdim edilmiş hesabatlara əsasən müəyyən edilmişdir ki, hesabat dövründə təsərrüfat subyektləri ilə 56 862 165,5 manat məbləğində 3540 müqavilə bağlanmışdır. 2016-cı il ərzində bağlanmış müqavilələrdən 47 706104,9 manat məbləğində 2663-ü yerinə yetirilmişdir.

Qeyd etmək lazımdır ki, 2015-ci il ilə müqayisədə 2016-cı ildə yerinə yetirilmiş müqavilələrin sayı 2649-dan 2663-ə qədər, yəni 14 ədəd və ya 0,5%, məbləği 40 601 128,5 manatdan 47 706 104,9 manata qədər, yəni 7 104 976,4 manat və ya 17,5%, orta məbləği isə 15 327,0 manatdan 17 914,4 manata qədər, yəni 2 587,4 manat və ya 16,9% artmışdır.

2016-cıil üzrə 67 522 məcburi audit obyektindən 1522-si (2,3%-i) auditdən keçmişdir.

2015-2016-cı illər ərzində məcburi audit subyektlərinin təşkilati-hüquqi forması üzrə göstərilmiş auditor xidmətlərinin təhlili nəticəsində müəyyən edilmişdir ki, 2015-ci il ərzində respublika üzrə 67 522 məcburi audit obyektindən 1770-i (2,7%-i), 2016-cı ildə isə 1522-si (2,3%-i) auditdən keçmişdir. 2015-2016-cı illər müqayisə edildikdə məcburi auditdən keçən təsərrüfat subyektlərinin sayında 0,4% azalma müşahidə edilmişdir. Beləliklə, 2015-2016-cı illər üzrə auditdən keçməyə dair aparılan müqayisələr aşağdakı nəticələri aşkar etmişdir:

- səhmdar cəmiyyətləri üzrə 18,4%-dən 16,2%-ə qədər azalmış;
- məsulliyətli cəmiyyətlər üzrə 1,2%-dən 0,8%-ə qədər azalmış;
- bələdiyyələr üzrə 37,2%-dən 41,1 %-ə qədər artmışdır.

Auditorlar Palatasının şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə istiqamətində səlahiyyətli dövlət orqanları ilə əməkdaşlıq əlaqələri dövlət sifarişləri formasında 2016-cı ildə də davam etdirilmişdir. Belə ki, həmin orqanlardan daxil olmuş 28 müraciət əsasında yoxlamaların aparılmasına sərbəst auditorlar və auditor təşkilatlarının nümayəndələri cəlb olunmuş, başa çatmış yoxlamaların nəticələrinə dair tərtib olunmuş materialların aidiyyatı orqanlara təqdim edilməsi təmin edilmişdir.

"Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası"nda (2012-2020-ci illər) 2016-cı il üzrə nəzərdə tutulmuş tədbirlərin icrası istiqamətində Auditorlar Palatası tərəfindən aşağıdakı müvafiq işlər görülmüşdür:

1. "Beynəlxalq Audit Standartlarının tələbləri nəzərə alınmaqla "Auditor fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi üzərində işlərin başa çatdırılması" yarımbəndinə uyğun olaraq Beynəlxalq Audit Standartlarının tələbləri və auditor xidməti sahəsində qanunvericilik aktlarına edilmiş son dəyişikliklər nəzərə alınmaqla hazırlanmış "Auditor fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi 2016-cı ilin 4 iyul tarixində Auditorlar Palatasının Şurasında müzakirə edilərək, onun 277/1 saylı qərarı ilə bəyənilmiş və Auditorlar Palatasının internet səhifəsində yerləşdirilmişdir.

"Auditor fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi 2016-cı ilin 21 noyabr tarixində Auditorlar Palatası Şura-



**Qəşəm BAYRAMOV, Azərbaycan Respublikası Auditorlar Palatası Aparatının rəhbəri**



**Səbuhi GÜLMƏMMƏDOV, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi**

sının iclasında müzakirə olunaraq göstərilmiş təkliflər nəzərə alınmaqla layihənin ingilis dilinə tərcümə edilməsi və rəy bildirilməsi məqsədilə Palatanın əməkdaşlıq etdiyi xarici ölkələrin mühasibat və audit qurumlarına və üzv olduğu Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsi barədə 281/1 nömrəli qərar qəbul edilmiş və icrası təmin edilmişdir.

2. "Korrupsiyaya qarşı mübarizədə auditin təşkili üzrə Metodik Göstəriş"in layihəsi hazırlanmış, Palata Şurasının 2016-cı il 26 may tarixli iclasında müzakirə edilərək onun 276/7 saylı qərarı ilə bəyənilmiş və auditor təşkilatları və sərbəst auditorlar tərəfindən tətbiqi məqsədəmüvafiq hesab edilmişdir.

3. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair Metodik Tövsiyələr"in layihəsi hazırlanmış və Palata Şurasının 2016-cı il 26 may tarixli Şura iclasında müzakirə edilərək, onun 276/6 saylı qərarı ilə bəyənilərək auditor təşkilatları və sərbəst auditorlar tərəfindən tətbiqi məqsədəmüvafiq hesab edilmişdir.

4. "Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-ci il üzrə fəaliyyətinin yekunlarının nəticələri barədə" 2016-cı il 30 mart tarixli 275/1 saylı qərarı ilə təsdiq edilərək nəşr etdirilmiş, 2016-cı il 22 aprel tarixində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına və aidiyyatı qurumlara təqdim edilmişdir.

Hesabatın qısa icmalı Azərbaycan və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilmiş və "İqtisadiyyat" qəzetinin 2016-cı il 6-12 may tarixli nömrəsində dərc etdirilmişdir.

5. Auditorlar Palatası sədrinin "Azərbaycan Respublikası Auditorlar Palatası yanında İctimai Şuraya seçkilərin təşkili və keçirilməsi məqsədilə seçki komissiyasının yaradılması barədə" 2016-cı il 26 oktyabr tarixli 1/40 saylı sərəncamı ilə 9 nəfərdən ibarət Seçki Komissiyası yaradılmışdır.

6. Palataya daxil olunan ərizə və müraciətlərə baxılaraq, yeni üzvlərin qəbul olması üçün müəyyən işlər görülmüş və 2016-cı ildə Palataya 21 təşkilat, 35 sərbəst auditor, 7 assosiativ üzv qəbul olunmuşdur (və ya müddəti bitmiş icazələr yenidən rəsmiləşdirilmişdir).

7. Auditin keyfiyyətinə kənar nəzarətlə bağlı beynəlxalq təcrübə öyrənilmiş və "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"ın layihəsi işçi qrupu tərəfindən hazırlanmış və Palata Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 nömrəli qərarı ilə təsdiq edilmişdir.

8. Azərbaycan Respublikasının mövcud qanunvericiliyinin tələblərinə uyğun olaraq, məcburi auditdən keçməli olan vergi ödəyicilərinin siyahısı müəyyən edilmiş və Palata tərəfindən təqdim edilən müraciətin mövzusuna uyğun olaraq məcburi auditdən keçməli olan 22094 vergi ödəyicisinin nazirliyin məlumat bazasında olan mobil telefon nömrələrinə Vergilər Nazirliyinin çağrı mərkəzi vasitəsilə qısa mesajlar (SMS) göndərilmişdir.

9. Palatanın internet səhifəsi müntəzəm olaraq təkmilləşdirilir və onun fasiləsiz fəaliyyəti Azərbaycan, ingilis və rus dillərində mütəmadi təmin edilir. Palatanın 27 bölmədən ibarət internet səhifəsində 2016-cı il ərzində 38 halda material - Palatanın 2016-cı il üzrə iş planı, Palata Şurasının qərarları, Palata sədrinin əmr və sərəncamları, xəbərlər, elanlar, yeniliklər, yubiley tədbirləri və s. yerləşdirilmişdir.

10. Xarici təcrübədən yararlanmaq məqsədi ilə müxtəlif beynəlxalq universitetlərin tədris proqramları, dərs vəsaitləri və təlim proqramları araşdırılmış və toplanmış materiallardan yararlanaraq yeni tədris proqramı hazırlanmış, müxtəlif tərəfdaşlara göndərilmişdir.

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda sərbəst auditorlardan və auditor təşkilatlarından auditor yoxlamalarını və digər auditor xidmətlərini keyfiyyətli həyat keçirmək, auditin aparılması zamanı aşkar edilmiş bütün pozuntular, mühasibat uçotunun aparılması və hesabatların tərtibi ilə bağlı nöqsanlar haqqında sifarişçinin rəhbərliyinə məlumat vermək tələb olunur. 2010-cu ildən başlayaraq Azərbaycan Respublikasında tətbiqinə başlanılmış Beynəlxalq Audit Standartlarında (BAS) da auditorların apardıqları auditlərin keyfiyyətinin yüksəldilməsinə dair konkret vəzifə və tələblər müəyyənləşdirilmişdir.

Bu istiqamətdə Auditorlar Palatasında auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi və keyfiyyətə nəzarətin həyata keçirilməsi istiqamətində bir sıra sənədlər işlənib hazırlanmış və təsdiq edilmişdir.

Bununla belə, son dövrlərdə audit təcrübəsində baş vermiş yeniliklər auditorların qarşısında duran vəzifələrin müasir şəraitə uyğun olaraq daha da genişləndirilməsini, BAS-ın yeni tələb və prinsiplərinin qəbul edilməsini, auditor xidmətinin keyfiyyətinə nəzarətin təkmilləşdirilməsini aktuallaşdırmışdır. Bu mənada auditor təşkilatlarında və sərbəst auditorların fəaliyyətində daxili nəzarət sisteminin tətbiqi ilə yanaşı, xidmətin keyfiyyətinə kənar nəzarətin daha da təkmilləşdirilməsi zərurəti yaranmışdır. Beləliklə, Auditorlar Palatası sədrinin "Auditor xidmətinin keyfiyyətinə nəzarət sisteminin yaxşılaşdırılması" haqqında 2016-cı il8 iyun tarixli 1/20 nömrəli sərəncamına əsasən "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar", ona əlavə olunan Anketlər və Konfidensiallıq Bəyannaməsi hazırlanmış və Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 saylı qərarı ilə təsdiq edilmişdir.

Auditorlar Palatası Şurasının 2016-cı il 4 iyul tarixli 277/5 saylı "Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin 2016-cı il üzrə dəqiqləşdirilmiş iş planının və keyfiyyətə nəzarət komitəsinin müfəttişlərinin siyahısının təsdiqi" barədə qərarı ilə təsdiq edilmiş "Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən aparılmış auditlərin keyfiyyətinə nəzarətin həyata keçirilməsi üzrə Plan-qrafik"ə əsasən 2016-cı il ərzində 10 auditor təşkilatının və 11 sərbəst auditorun son 3 ildə apardıqları auditlərin keyfiyyətinin Beynəlxalq Audit Standartlarının tələblərinə uyğunluğu yoxlanılmışdır.

Bütün yoxlamaların nəticələri Keyfiyyətə nəzarət komitəsinin iclaslarında müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir.

Bundan başqa, fəaliyyətləri yoxlanılmış auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədi ilə məktublar göndərilmişdir.

2016-cı il üzrə auditor xidmətinin keyfiyyətinə kənar nəzarətin aparılması və onun nəticələri Auditorlar Palatası Şurasında müzakirə edilmiş və 2017-ci il 31 yanvar tarixli 285/1 saylı qərar qəbul edilmişdir. Bu qərarın 3-cü bəndinə əsasən, xidmət göstərərkən üç və daha çox Beynəlxalq Audit Standartının tələblərinə riayət etməyən və fəaliyyətlərində ciddi nöqsan və çatışmazlıqların aşkar olunduğunu nəzərə alaraq 6 auditor təşkilatına və 6 sərbəst auditora ciddi xəbərdarlıq edilmiş və gələcəkdə belə hallara yol verərlərsə, onların barələrində daha təsirli tədbirlər görüləcəyi nəzərlərinə çatdırılmışdır. Həmin auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinin Beynəlxalq Audit Standartlarının tələblərinə uyğunluğunun 2017-ci ildə təkrar yoxlanılması barədə qərar qəbul edilmişdir.

Tədris və davamlı peşə təhsili proqramlarında qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla 2016-cı il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı, qrafiki və auditorların qruplar üzrə siyahısı hazırlanmış və Palata Şurasının iclasında müzakirə edilərək təsdiq edilmişdir.

Auditorlar Palatasının müvafiq iş planına uyğun olaraq, "Auditin əsasları" üzrə kursun tədris proqramı hazırlanmış və təsdiq edilmişdir. Həmin proqrama uyğun olaraq, bütün auditor təşkilatlarının rəhbərlərinə təşkilatlarında çalışan assistent və mütəxəssislərin ixtisasartırma kursunda iştirak etmələri ilə bağlı 2016-cı il 15 aprel tarixində məktublar göndərilmiş, 28 auditor təşkilatından 47 nəfər əməkdaşa 2016-cı il 2 may tarixindən 20 may tarixinədək kurslar təşkil edilmiş, kursların nəticələrinə görə dinləyicilərə sertifikatlar təqdim edilmişdir.

Auditorlar Palatası kadr hazırlığı sahəsində əməkdaşlıq etdiyi qurumlarla və ali təhsil müəssisələri ilə bir sıra birgə işlər görmüşdür. O cümlədən:

•2016-cı il ərzində aparıcı təşkilat kimi Auditorlar Palatasına daxil olmuş bir neçə elmi işlərlə bağlı seminarlar təşkil edilmişdir.

• Hesabat ili ərzində Auditorlar Palatası tərəfindən maliyyə, mühasibat uçotu və audit sahəsində nəşr etdirilmiş ədəbiyyatlar metodoloji yardım etmək məqsədilə Palatanın əməkdaşlıq etdiyi ali təhsil müəssisələrinə təqdim edilmişdir.

• Azərbaycan Respublikasında şəffaflığın artırılması və mövcud imkanlardan daha səmərəli istifadə edilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlər, audit və mühasibat uçotu sahəsində mütəxəssislərin səviyyəsinin yüksəldilməsinə və Beynəlxalq Audit Standartlarına uyğun bilik və təcrübəyə malik kadrların hazırlanmasını, beynəlxalq və milli mühasibat uçotu standartlarına keçidlə əlaqədar mühasibat uçotu və audit fənləri üzrə tədrisin yenidən təşkili ilə bağlı tədris materiallarının hazırlanması sahəsində işlərin davam etdirilməsini və ali məktəblərə bu istiqamətdə dəstək göstərilməsini təmin etmək məqsədilə Auditorlar Palatası tərəfindən hazırlanmış "Mühasibat uçotu" və "Audit" fənlərinin tədris proqramlarının ali təhsil müəssisələrində "Mühasibat uçotu və audit" ixtisası üzrə təhsil alan tələbələrə tədris olunması üçün göndərilməsi təmin olunmuşdur.

2016-cı il ərzində Auditorlar Palatası tərəfindən çoxsaylı konfrans, seminar, simpozium, dəyirmi masa və s. tədbirlər keçirilmişdir:

1. Auditorlar Palatasında 2016-cı il 29 yanvar tarixində "Auditin dəyərinin müəyyən edilməsi metodikası"na dair seminar;

2. Auditorlar Palatasında 2016-cı il 25 fevral tarixində "Müasir şəraitdə auditin əsas vəzifələri" mövzusunda "dəyirmi masa";

3. Auditorlar Palatasında 2016-cı il 15-16 mart tarixlərində auditor təşkilatlarının, sərbəst auditorların və digər maraqlı təşkilatların nümayəndələrinin iştirakı ilə "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlara uyğun hazırlanması praktikası" mövzusunda seminar;

4. Auditorlar Palatasında 2016-cı il 20 aprel tarixində Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Auditorlar Palatası üzvlərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında" 2016-cı il 4 aprel tarixli 1934 nömrəli Sərəncamına uyğun olaraq medalların təqdimetmə mərasimi;

5. Auditorlar Palatasında 2016-cı il 17-18 may tarixlərində "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlara uyğun hazırlanması praktikası" və "Firmadaxili standartların tərtibinə dair metodik göstərişin şərhi" mövzularında Təlim;

6. Auditorlar Palatasının təşkilatçılığı ilə ölkəmizdə həyata keçirilən islahatlara dəstək məqsədilə 2016-cı ilin 5 avqust tarixində "İqtisadi islahatların sürətləndirilməsi ilə əlaqədar qəbul edilmiş normativ hüquqi aktların auditorlar və müvafiq qurumlar qarşısında yaratdığı öhdəliklər" mövzusunda seminar-müşavirə;

7. Auditorlar Palatasında 2016-cı il 27 oktyabr tarixində "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə yeni Qaydalar"ın tətbiqinə dair auditor təşkilatlarının nümayəndələrinin və sərbəst auditorların iştirakı ilə seminar;

8. Auditorlar Palatası "Ernst & Yanq Holdings (SiAyEs) Bi.Vi" şirkətinin Azərbaycan Respublikasındakı filialı və "Barattson School of Business & Finance" MMC ilə birlikdə 2016-cı il 29 noyabr tarixində "MHBS(IFRS) əsasında konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması praktikası" və "Korporasiyadaxili fırıldaqçılıq və dələduzluqla mübarizə, mühasibat uçotu məlumatlarının bilərəkdən təhrif edilməsi əlamətlərinin aşkar olunması" mövzularında seminar;

9. Auditorlar Palatası "Praysvoterhauskupers Audit Azərbaycan" MMC və "MAK AZƏRBAYCAN LTD" MMC ilə birlikdə 2016-cı il 9 dekabr tarixində "MHBS (IFRS) əsasında konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması praktikası" "Daxili audit və korporativ idarəetmə sistemi" və "Biznesin qiymətləndirilməsi" mövzularında seminar;

10. Auditorlar Palatası tərəfindən Bakı şəhərində 2016-cı il 5 aprel tarixində Auditorlar Palatasının fəaliyyətə başlamasının 20 illiyinə həsr olunmuş yubiley tədbiri və tədbir çərçivəsində "Müasir şəraitdə auditin tənzimlənməsinin aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans.

Auditorlar Palatasının əməkdaşları və üzvləri hesabat ili ərzində aşağıdakı yerli tədbirlərdə iştirak etmişlər:

• 2016-cı il 9-11 mart tarixlərində Azərbaycan Respublikası Vergilər Nazirliyində "Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə qlobal Forum"da;

• 2016-cı il 19-22 iyul tarixlərində "Vəkillikdə Üzvlüyün İdarəsi və Dövlət-Özəl Dialoq" mövzusunda həyata keçirilən təlimlərdə və "Donor forumun"da;

• 2016-cı il 25 oktyabr tarixində Holiday İnn otelində keçirilən "Kiçik Sahibkarlığın İnkişafına Dəstək" layihəsi çərçivəsində, "Assosiasiyalarda üzvlüyün artırılması üsulları" və "Əlaqələrin qurulması və inkişaf etdirilməsi" mövzularında keçirilən təlimlərdə.




Auditorlar Palatası audit sahəsində inkişaf etmiş qabaqcıl ölkələrin təcrübəsinin öyrənilməsi və tətbiq edilməsini, eləcə də beynəlxalq audit praktikası əsasında respublikada auditin keyfiyyətinin yüksəldilməsini təmin etmək məqsədilə müvafiq tədbirlər sisteminin işlənib hazırlanmasına xüsusi diqqət yetirir.

Auditorlar Palatasının əməkdaşları və üzvləri 2016-cı il ərzində aşağıdakı beynəlxalq tədbirlərdə iştirak etmişlər:

1. Auditorlar Palatasının nümayəndə heyətinin iştirakı ilə 2016-cı ilin 17-18 mart tarixlərində Varşava şəhərində Dünya Bankının "Maliyyə hesabatlarına tələblər: tələblərin müəyyənləşdirilməsi və yerinə yetirilməsi" mövzusunda keçirilmiş beynəlxalq tədbir;

2. Auditorlar Palatasının nümayəndə heyətinin iştirakı ilə 2016-cı il 26-28 aprel tarixlərində Avstriyanın Vyana şəhərində "Dünya Bankının maliyyə məlumatları inkişafı sürətləndirmənin əsas amili kimi" mövzusunda keçirilmiş seminar;

3. Gürcüstan Peşəkar Mühasiblər və Auditorlar Federasiyasının (GFPAA) 2016-cı il 20-21 may tarixlərində Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərində GFPAA-nın 20 illik yubileyinə həsr olunmuş "20 illik peşəkar inkişaf: Avropa inteqrasiyası və peşənin problemləri" mövzusunda keçirilən beynəlxalq konfrans;

4. Moldova Peşəkar Mühasiblər və Auditorlar Assosiasiyasının (ACAP) 2016-cı il 16-17 iyun tarixlərində Moldova Respublikasının paytaxtı Kişinyov şəhərində ACAP-ın 20 illik yubileyinə həsr olunmuş "Mühasibat uçotu və audit peşəsinin problemləri və imkanları: dünya təcrübəsi və həlli yolları" mövzusunda keçirilən beynəlxalq konfrans;

5. Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) Direktorlar Şurasının 2016-cı ilin 28-30 sentyabr tarixlərində Brüssel şəhərində EFAA-nın İdarə Heyətinin iclası və Fransa Diplomlu Mühasiblər İnstititunun Ali Şurasının Konqresi;

6. Monteneqro Respublikasının paytaxtı Podqoresta şəhərində Monteneqro Mühasiblər və Auditorlar İnstitutunun fəaliyyətə başlamasının 60 illik yubileyi ilə əlaqədar keçirilən tədbir və 9-12 oktyabr tarixlərində Dünya Bankının Maliyyə Hesabatı İslahatlar Mərkəzinin (CFRR) təşkilatçılığı ilə Belarus Respublikasının paytaxtı Minsk şəhərində "Daha məsuliyyətli və şəffaf iqtisadiyyat üçün auditin keyfiyyətinin gücləndirilməsi" mövzusunda keçirilən seminar.

Hesabat ili ərzində Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsi, Auditorların peşə etikası və üzvlük komitəsi, Kadr hazırlığı və gənclərlə iş üzrə komitə, Qanunvericilik və hüquqi məsələlər üzrə komitə, Beynəlxalq standartlar və metodiki təminat komitəsi, Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitə, Milli auditə dəstək və məcburi audit üzrə komitə və Dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitə fəaliyyət göstərmişdir.

"Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə müvafiq olaraq, cari işlərin aparılması və əməli xidməti funksiyaların yerinə yetirilməsi məqsədilə 2016-cı ildə Palata Şurasının 12 iclası (fəaliyyətə başladığı dövrdən hesabat ilinin sonuna qədər iki yüz səksən dörd iclas) keçirilmiş və əsasən auditor fəaliyyətini tənzimləyən normativ hüquqi sənədlərin, təlimatların, standartların və qaydaların müzakirəsi ilə əlaqədar qərarlar qəbul edilmişdir.

Auditorlar Palatası tərəfindən 2016-cı il ərzində "Audit. Qanunvericilik və normativ sənədlər", "Müasir şəraitdə auditin tənzimlənməsinin aktual problemləri", "Azərbaycan Respublikasının Auditorlar Palatası - 20 il" kitabları nəşr etdirilmişdir.

2016-cı ildə Palatanın əməkdaşları və üzvləri tərəfindən təqdim edilmiş 5 məqalə ("Auditor xidməti Azərbaycanın iqtisadi qüdrətinin möhkəmləndirilməsində mühüm rol oynayır" - Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzov, 2016-cı il 5 aprel, "Respublika" qəzeti, "2016-cı ilin 05-06 aprel tarixlərində Bakı şəhərində Azərbaycan Respublikası Auditorlar Palatasının 20 illik yubileyinə həsr olunmuş tədbir və "Müasir şəraitdə auditin tənzimlənməsinin aktual problemləri" - Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi Səbuhi Gülməmmədov, 2016-ci il 22 aprel, "İqtisadiyyat" qəzeti, "Azərbaycan auditi 2015-ci ildə" - Auditorlar Palatası Aparatının rəhbəri Qəşəm Bayramov, 2016-ci il 6 may, "İqtisadiyyat" qəzeti, Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Soltanov Qulu Mehbalı oğlu barədə məqalə, 2016-cı il 15 avqust, "Respublika" qəzeti, "Korrupsiyaya qarşı mübarizədə auditin imkanları genişdir" - Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzov, 2016-cı il 20 dekabr, "Azərbaycan" qəzeti) müxtəlif jurnal və qəzetlərdə dərc olunmuşdur.

2017-ci ildə biz təkcə əldə edilən nailiyyətlərlə kifayətlənməyərək, uğurla inkişaf edən müstəqil Azərbaycanın iqtisadi tərəqqisi sayəsində şəffaflığın yüksəldilməsi üzrə çox mühüm vəzifələrin icrasını qarşıya məqsəd qoymuşuq. Həmin vəzifələr ölkə prezidentinin tapşırığına əsasən hazırlanmış Azərbaycan Respublikasında auditor xidmətinin inkişafına dair 2020-ci ilə qədər dövrü əhatə edən Konsepsiyada müəyyənləşdirilmişdir və Auditorlar Palatasının kollektivi və üzvləri həmin vəzifələrin icrasını vaxtında və keyfiyyətlə təmin etməklə müstəqil Azərbaycan Respublikasının inkişafına və onun iqtisadi qüdrətinin gücləndirilməsinə öz töhfələrini vermiş olacaqlar.

# Ticarət festivalları zamanı alınan mallara görə ödənilən məbləğdən ƏDV geri qaytarılacaq

Ölkə prezidenti cənab İlham Əliyevin 2016-cı ilin sentyabr ayının 1-də imzaladığı «Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» sərəncam bu sektorun gələcək inkişafı üçün yeni bir mərhələ açır. Sərəncama uyğun olaraq həyata keçiriləcək tədbirlərdən biri də paytaxt Bakıda ticarət festivallarının («shopping festival») təşkilidir. Ticarət festivallarının keçirilməsində məqsəd ölkənin turizm və iqtisadi potensialının yüksəldilməsi, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi ilə ölkənin ticarət dövriyyəsinin artırılmasının stimullaşdırılmasıdır. Bu festivallar həm də fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin (ƏDV) qaytarılması sisteminin ölkədə tətbiqi ilə vergi inzibatçılığının daha da təkmilləşdirilməsini, rezident və qeyri-rezident vergi ödəyicilərinə xidmət sisteminin inkişaf etdirilməsini nəzərdə tutur.

Aprel ayının 5-də Vergilər Nazirliyində Bakı şəhərində təşkil ediləcək ticarət festivalı («shopping festival») zamanı alınan mallara görə ödənilən məbləğdən ƏDV-nin geri qaytarılması mexanizminin şərhinə həsr edilmiş brifinq keçirilib. Brifinqdə çıxış edən vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu Departamentinin baş direktoru Ələkbər Məmmədov bildirib ki, ticarət festivalları dövründə ƏDV-nin qaytarılması qaydası dövlət başçısının 2017-ci il 20 fevral tarixli fərmanı ilə təsdiq edilib. ƏDV-nin qaytarılması ilə ticarət festivallarının operatoru kimi Vergilər Nazirliyi məşğul olur: ƏDV-nin qaytarılması işlərini təşkil edir, müvafiq proqram təminatının və vahid məlumat bazasının yaradılmasını və idarə olunmasını təmin edir.

Ticarət festivalı dövründə hər bir alıcı ƏDV-nin qaytarılması ilə bağlı məlumat ala bilər və satıcılar bunu izah edəcəklər. Əgər alıcılar əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olarsa, satıcılar onlara ƏDV-nin qaytarılmasının 2-ci qaydası barədə də məlumat verməlidir.

Bildirilib ki, «Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası», yəni qısaca olaraq, «Tax Free» sistemi mövcuddur. Alıcı xarici vətəndaş olarsa, ona bu barədə də məlumat veriləcək. Bundan sonra həmin əcnəbi şəxs aldığı mallara görə ödənilmiş ƏDV-nin qaytarılması üsulunu bu qaydalardan birinin tələbləri çərçivəsində özü seçə bilər.

Alıcı ƏDV-nin qaytarılması hüququndan istifadə etmək istədikdə satıcı Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalında elektron vergi hesab-fakturası (e-VHF) tərtib edir və bu barədə məlumatları real vaxt rejimində vahid məlumat bazasına ötürür. Alıcı ticarət festivalı dövründə aldığı mallar üzrə ödənilmiş ƏDV-nin qaytarılması məqsədilə müəyyən olunmuş yerlərdə yaradılan xüsusi köşkə yaxınlaşaraq aldığı malların elektron vergi hesab-fakturasını vergi orqanının köşkdə çalışan əməkdaşına təqdim edir. Məlumatlar vahid məlumat bazasında yoxlanıldıqdan sonra avtomatik olaraq risk qiymətləndirməsi aparılır və onun nəticələri əsasında vergi orqanının əməkdaşı tərəfindən mallara baxılmalı olub-olmadığı müəyyən edilir. Yoxlamanın nəticələrinə uyğun olaraq qaytarılacaq ƏDV məbləği barədə təsdiq qeydi aparılır, sənəd möhürlənib alıcıya təqdim olunur və bu barədə məlumat real vaxt rejimində müvəkkil banka ötürülür. Müvəkkil bank isə vergi orqanı tərəfindən möhürlə təsdiq olunmuş e-VHF-yə əsasən qaytarılmalı olan ƏDV məbləğini alıcının istəyinə uyğun olaraq, elə həmin gün nağd qaydada və ya 10 iş günündən gec olmayaraq milli valyutada (əcnəbilərə münasibətdə milli və ya xarici valyutada) alıcının bank kartına (və ya hesabına) köçürmə qaydasında qaytarır.

Bildirilib ki, «Tax Free» sistemində olduğu kimi, burada da bir sıra mallar var ki, onlara görə tutulmuş ƏDV qaytarılmır. Buraya aksizli mallar, ərzaq məhsulları, dərman preparatları və tibbi ləvazimatlar, ölkə daxilində satışı ƏDV-dən azad edilən mallar, çərçivəyə salınmamış, emal edilməmiş və ya çeşidlənməmiş qiymətli daşlar, külçə şəklində qiymətli metallar, nəqliyyat vasitələri və onların ehtiyat hissələri aiddir.

Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması yalnız bir elektron vergi hesab-fakturası üzrə malların dəyəri (ƏDV ilə birlikdə) 100 manatdan çox olduğu hallarda təmin edilir.

Ə.Məmmədovun sözlərinə görə, ticarət festivalları dövründə ƏDV-nin qaytarılması ilə «Tax Free» sisteminin əsas fərqi bundadır ki, ticarət festivallarında alıcıya fərq qoyulmur. “Tax Free” sistemində isə ƏDV-nin qaytarılması yalnız əcnəbi turistlərə şamil edilir. Daha bir fərq də budur ki, «Tax Free» sistemində 300 manatdan artıq alınmış mallar üzrə ƏDV-nin qaytarılması nəzərdə tutulurdusa, ticarət festivalları zamanı bu hədd daha aşağıdır - bir e-VHF üzrə alınan malların dəyəri ƏDV ilə birlikdə 100 manatdan çox olmalıdır. «Tax Free» sistemində alıcı malı ölkə ərazisindən çıxardıqdan sonra ən geci 90 gün ərzində ƏDV geri qaytarılır, ticarət festivallarında isə belə məhdudiyyət yoxdur - mal alındığı gün ərzində ƏDV nağd qaydada və ya sonrakı 10 gün ərzində nağdsız qaydada geri qaytarılır. «Tax Free» sistemində malların yoxlanılması və ƏDV-nin qaytarılması gömrük sərhəd-buraxılış məntəqələrində, ticarət festivallarında isə bilavasitə ticarət məkanlarında yaradılan xüsusi köşklərdə həyata keçirilir.

Ticarət festivalları dövründə festival iştirakçısı olan hər bir ticarət obyektindən mal almış istənilən şəxs ona lazım olan bir çox malları daha ucuz qiymətə əldə edə biləcək, bu isə öz növbəsində ticarət dövriyyəsinin artmasına səbəb olacaqdır.

# “Azərbaycan mühasiblər forumu - 2017” keçirilib




Aprelin 8-də Vergilər Nazirliyinin Tədris Mərkəzində “Azərbaycan mühasiblər forumu - 2017” keçirilib. Forumda yerli və beynəlxalq audit və məsləhətçi şirkətləri, beynəlxalq maliyyə institutları, yerli dövlət qurumları və maliyyə təşkilatları, regional peşəkar mühasibatlıq təşkilatları, yerli və özəl şirkətlərin mühasibləri, habelə universitet və media nümayəndələri iştirak ediblər.

4 bölmədən ibarət olan forumun “Mühasibat uçotu sahəsində hüquqi baza və yeni çağırışlar” bölməsində Azərbaycan Respublikası Maliyyə Nazirliyinin nümayəndəsinin “Kommersiya təşkilatları üçün təklif olunan yeni hesablar planının və maliyyə hesabatı formalarının müasir tendensiyası – Mühasibat uçotu haqqında qanunda zəruri dəyişikliklər”, “Accounting&Financial Advisory” firmasının “Kiçik və orta şirkətlərdə mühasibatlığın mövcud problemləri və onların həlli yolları”, İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin “Büdcədən maliyyələşən təşkilatlarda uçot və hesabatla bağlı mövcud əngəllər və onların aradan qaldırılması yolları” mövzusunda təqdimatları dinlənilib.

Forumun ikinci bölümündə mühasibatlıq sahəsində təhsil və sertifikasiya məsələləri müzakirə olunub. “Mühasibat uçotunun sertifikasiyası üzrə qabaqcıl təcrübənin Azərbaycanda tətbiqi məsələləri”, “Mühasibat uçotunun tədrisinin təkmilləşdirilməsində dövlətin rolu”, “Ali təhsil müəssisələrində mühasibatlıq üzrə tədrisin metodikası və təhsilin əyani vəsaitlərlə təmini problemləri” və “Özəl peşəkar təlimin uçotun inkişafında rolu” mövzularında çıxışlar forum iştirakçılarına təqdim olunub.

Forumun “Vergi islahatlarının uçota təsiri” bölümündə “2017-ci ildə Azərbaycan Respublikasının vergi məcəlləsində əlavə və dəyişikliklərin təqdimatı” və “Vergi qanunvericiliyindəki son dəyişikliklərin uçotda əks etdirilməsi yolları” mövzusunda məruzələr təqdim olunub. Bildirilib ki, Vergi Məcəlləsinə həm həcm, həm də mahiyyət baxımından ciddi dəyişikliklər edilib. Son dəyişikliklərin əsas məqsədi və hədəfi kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, pul dövriyyəsinin tənzimlənməsi, bankların likvidliyinin və bilavasitə vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulmasıdır. Uçot sisteminin şəffaflaşdırılması ilə bağlı Vergi Məcəlləsinə edilən dəyişikliklər iqtisadi fəaliyyət sahələri üzrə vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydalarının müəyyən edilməsi, malların alqı-satqı prosesində hərəkət zənciri boyu sənədləşmənin aparılması, vergidən yayınma hallarının qarşısının alınması məsələlərini əhatə edir.

Forumun son bölümündə “Mühasibatlıqda İKT: milli və beynəlxalq proqramların qarşılıqlı əlaqəsi” mövzusu müzakirə edilib və “Azərbaycanda mühasibatlığın təşkilində İKT-nin rolu və qarşıda duran problemlər” və “Milli proqramların təqdimatı” forum iştirakçılarının diqqətinə çatdırılıb.

# Vergi işçiləri arasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş şahmat turnirinə start verilib



Aprel ayının 8-də vergi xidməti əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş 12-ci ənənəvi şahmat turnirinə start verilib. Turnir Gənclər və İdman Nazirliyinin və Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən təşkil olunub.

Vergilər Nazirliyi Aparatının rəhbəri Ağasəməd Əfəndiyev turnir iştirakçılarını salamlayaraq bildirib ki, Vergilər Nazirliyinin təşkilatçılığı ilə keçirilən bu turnir Azərbaycanda şahmatın indiki səviyyəyə çatmasında müstəsna xidmətləri olmuş ulu öndərimiz Heydər Əliyevin əziz xatirəsinə həsr edilib.

Azərbaycanda şahmatın zəngin inkişaf tarixi barədə danışan A.Əfəndiyev ölkəmizdə böyük şahmatçıların yetişdiyini bildirərək, qeyd edib ki, şahmatın sürətlə inkişaf etməsi, şahmatçılarımızın beynəlxalq səviyyədə uğurlarının artması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ötən əsrin 70-ci illərində ölkəmizə rəhbərlik etməyə başlamasından sonra geniş vüsət alıb.

Prezident İlham Əliyevin də şahmatın inkişafına böyük diqqət yetirdiyini nəzərə çatdıran natiq bu məqsədlə ölkə rəhbərinin respublikamızda şahmatın inkişaf etdirilməsi haqqında xüsusi sərəncamlar imzaladığını, bütün bunların Azərbaycan şahmatçılarının beynəlxalq yarışlarda yeni qələbələr qazanmalarına zəmin yaratdığını vurğulayıb. Şahmatın maddi-texniki bazasının gücləndirilməsi, şahmatçılara göstərilən dövlət qayğısının nəticəsidir ki, şahmatçılarımızın beynəlxalq yarışlarda qazandıqları nailiyyətlərin sayı günü-gündən çoxalmaqdadır.

Qeyd olunub ki, müstəqilliyini bərpa edənədək Azərbaycanda beynəlxalq ada sahib cəmi 5 şahmatçı vardı, lakin hazırda Azərbaycanda 22 beynəlxalq qrossmeyster vardır, beynəlxalq usta, FİDE ustası adına malik şahmatçıların sayı isə onlarladır. Azərbaycan şahmatçıları FİDE-nin reytinqində yüksək yerləri tutur, ölkəmizin kişilərdən ibarət şahmat komandası iki dəfə Avropa çempionu olub. 2016-cı ildə Azərbaycan şahmat tarixində ilk dəfə olaraq Dünya Şahmat Olimpiadasını qəbul edib. Artıq 2 ildir ki, ardıcıl olaraq Şəmkir şəhərində keçirilən, Azərbaycanın tanınmış şahmatçısı Vüqar Həşimovun xatirəsinə həsr olunmuş Beynəlxalq Şahmat Turnirində FİDE reytinqində yüksək pillələrdə olan beynəlxalq şahmatçılar iştirak edirlər.

Nazirliyin müxtəlif struktur bölmələrinin əməkdaşlarının iştirak etdiyi, Olimpiya sistemi üzrə keçirilən turnir aprel ayının 29-da başa çatacaqdır.

# Yeni “Badamlı” zavodu tikilir



“Badamlı” suyuna artan tələbatı ödəmək üçün Şahbuz rayonunun Badamlı qəsəbəsində köhnə zavodun yerində müasir tələblərə cavab verəcək zavodun inşasına başlanılıb.

Bu ilin avqust-sentyabr aylarında istifadəyə verilməsi nəzərdə tutulan zavod əvvəlkindən daha böyük və yüksək texniki imkanlara malik olacaq. Zavodun suyun mənbəyində qurulması məhsul istehsalının artmasına və onlarla qəsəbə sakini üçün yeni iş yerinin açılmasına zəmin yaradacaq.

Qeyd edək ki, 2009-cu ildən Naxçıvan şəhərində müasir “Badamlı” zavodu qurularaq istifadəyə verilib. Bu istehsal müəssisəsində müxtəlif həcmli plastik və şüşə butulkalarda olmaqla, 12 çeşiddə mineral su istehsal olunur. Burada Almaniya istehsalı olan müasir avadanlıqlarla təmin edilmiş xüsusi laboratoriya qurulub. Laboratoriyada suyun minerallıq dərəcəsi, qələviliyi yoxlanılır, ümumi analizləri aparılır, sonra keyfiyyətə zəmanət verilir. İstehsal prosesinin avtomatlaşdırıldığı müəssisədə standartlara uyğun, ekoloji cəhətdən təmiz, yüksək keyfiyyətli məhsul istehsalına nail olunub. Şahbuzda qurulan ikinci zavod isə istehsalın həcmini və çeşidini daha da artıracaq və muxtar respublikanın ixrac imkanlarını genişləndirəcək. Təsadüfi deyil ki, Naxçıvan bu gün ölkəmizin əsas mineral su ixracatçısı sayılır və “Badamlı” kimi “Sirab” mineral suyu da dünya bazarlarına çıxarılır.

Xatırladaq ki, ötən əsrin əvvəllərində aparılan tədqiqatlar nəticəsində aşkara çıxarılan bu sərvət 1947-ci ildən bəri istehsala cəlb edilərək süfrələri bəzəyir. Bu il “Badamlı” mineral suyunun istehsalından 70 il ötür. Yeni zavodun tikintisi bu mənada əlamətdar hadisədir.

# Müasir dövrdə kredit-bank sistemində aparılan islahatlar və müəssisələrin diversifikasiya prosesi növbəti iqtisadi inkişaf mərhələsinin nüvəsidir



**Rasim Abasquluyev, ADİU doktorantı, Bakı Dövlət Sosial-İqtisadi Kollecinin "Maliyyə" fənn birləşməsinin müəllimi**

Müasir dövrün yeni tələbləri növbəti iqtisadi inkişaf mərhələsində bank sektorunun fəaliyyətinin günün tələbləri səviyyəsində yenidən qurulmasını zəruri etdi. İqtisadi islahatlara start verilməsi kredit-bank sistemində də islahatları gündəmə gətirdi. "Bank sektorunda islahatlar, konsolidasiya siyasəti davam etdirilməlidir. Bank sektorunda çox ciddi islahatlar aparılmalıdır" fikirlərini ölkə prezidenti cənab İlham Əliyev 7 oktyabr 2016-cı il tarixdə doqquz ayın sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda çıxışı zamanı söyləmişdir. Onun bu göstərişinin əsası bank-kredit sistemində fəaliyyət göstərən sahibkarları xüsusən böhranlı vəziyyətlərdə siyasi gücləri vahid ideya və məqsəd naminə bir araya gətirmək idi. Dünyanı bürüyən iqtisadi böhran Azərbaycan iqtisadiyyatından da yan keçə bilməzdi. Odur ki, iqtisadi islahatlara start verilməsi növbəti iqtisadi inkişaf mərhələsinin başlanğıcı hesab edilə bilər. Azərbaycan öz iqtisadi-siyasi xəttini müəyyən etdiyi dövrdən, yəni 1995-ci ildən günümüzə qədər kredit-bank sistemi də formalaşmış və maliyyə bazarının normal fəaliyyəti üçün dövlət kifayət qədər dəstək vermişdir. Odur ki, müasir dövrdə stabil maliyyə bazarının formalaşmaması sahibkarlıq subyektlərinin də inkişafını ləngidir.

Maliyyə bazarı elə bir bazar formasıdır ki, burada əmtəə yerinə maliyyə resursları çıxış edir. Maliyyə bazarının əsas funksiyaları pul vəsaitlərinin bir mülkiyyətçidən digərinə, yəni pula ehtiyacı olanlara hərəkətini təmin etməklə yanaşı, bazarda alıcı ilə satıcının birbaşa görüşməsi zamanı investorlar üçün pulları ən səmərəli istiqamətlərə yerləşdirmək üçün yer, imkan və şərait yaradır. Odur ki, müasir dövrdə maliyyə bazarının normal fəaliyyəti üçün bank sektorunda konsolidasiya siyasəti və islahatlar davam etdirilməlidir.

Bu gün bilavasitə dövlət dəstəyi ilə bir çox iri layihələr həyata keçirilməkdədir. Bu layihələrin yerinə yetirilməsində Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyəti əvəzsizdir.Dövlət dəstəyi ilə maliyyələşdirilən layihələri nəzərdən keçirsək, görərik ki, verilən kreditlərin müddətlərinin yarısı qədər güzəşt müddəti verilsə də, ancaq indiki diversifikasiya mərhələsində bu müddət az görsənir.

Maliyyələşdirilmiş investisiya layihələri, iqtisadiyyatın sahələri üzrə tələbatın ödənilmə səviyyəsi, eyni zamanda, iş yerlərinin açılması günün tələbi səviyyəsində olmasa da, bu sahədə dövlət dəstəyi kifayət qədərdir. Belə ki, Logistika mərkəzləri üzrə həyata keçirilən 52 layihədən 1927 iş yeri olmaqla müxtəlif anbarlar, soyuducu kameralar tikilib istifadəyə verilmişdir. Taxıl anbarları kompleksinin tikintisi üçün 646 iş yeri olmaqla, 24 layihənin reallaşmasını dövlət tərəfindən bu sahəyə ayrılan diqqət kimi qiymətləndirmək olar. İri taxılçılıq təsərrüfatlarına nəzər yetirsək, görərik ki, müxtəlif taxılçılıq rayonlarını əhatə etməklə 15 layihədən 603 iş yeri açılmışdır. Eyni zamanda, fondun məlumatları deməyə əsas verir ki, üzümçülük təsərrüfatları üzrə 16 layihə olmaqla 544 iş yeri açılmışdır. Çörək istehsalı müəssisələri üçün 1551 iş yeri olmaqla 30 müəssisə fondun vəsaitləri ilə təmin edilmişdir. Əlbəttə, bu siyahını daha da uzatmaq olar. Mənbə: (http://anfes.gov.az/az/)

Müasir dövrdə "bank-sahibkar" münasibətlərinin yeni müstəvidə qurulması günün tələbidir. "İnkişaf qütbünün" bir tərəfində sahibkardırsa, digər tərəfində bankdır. Odur ki, "bank-sahibkar" münasibətlərinin yeni müstəvidə qurulması həm bankın, həm də sahibkarların inkişafı deməkdir. Bunun faydasını həm dövlət büdcəsi, həm də ümumilikdə ayrı-ayrı məhsullar üzrə tələbatın ödənilməsi istiqamətində bütün cəmiyyətimiz görə bilər. Artıq banklar "sahibkarın mülkünün əlindən alınması" ideyası ilə yaşamamalı, istehsalın dirçəldilməsi üçün normal biznes-planlar qəbul etməli, analiz və sintezi düzgün apararaq müəyyənləşdirilmiş elmi prinsiplər əsasında kredit verməlidirlər. Banklar sahibkar tərəfindən kreditin qaytarılma müddətini düzgün müəyyən etməli, təminatlılıq əsasında diferensiallıq prinsipini gözləyərək, ödənclik şərti ilə kreditlər verməlidirlər. Göstərilən bu fikirlər kreditin elmi prinsiplərini özündə əks etdirsə də, ötən dövrdə bank sektorunda baş verənlər "bank-sahibkar" münasibətlərinin düzgün prinsiplər əsasında qurulmamasından xəbər verir. Təbii ki, elmi prinsiplərə söykənməyən istənilən iqtisadi fəaliyyət növü sonda iflasla nəticələnir.

Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 1 mart 2016-cı il Fərmanı ilə təsdiq edilmiş və 2020-ci ilin dekabrın 31-dək qüvvədə olacaq fərmana əsasən, Azərbaycan Respublikasının ərazisində istehsal olunan və istehsal prosesində istifadə olunan yerli komponentlərin və Azərbaycan Respublikasının ərazisində yaradılan qeyri-neft məhsullarının dəyərinin xüsusi çəkisindən, habelə ixrac olunan həmin məhsulların növündən asılı olaraq, Azərbaycan Respublikasının ərazisində qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi müəyyənləşdirilmişdir. Ödəniləcək ixrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3%-ni təşkil edir. Odur ki, Maliyyə Nazirliyi nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin edəcək.

Müasir dövrdə qeyri-neft sektorunun inkişafının əsas hərəkətverici qüvvəsi "maliyyə mənbəyi" hesab edilsə də, ondan da vacibi dövlət tərəfindən digər tənzimləyici alət hesab edilən vergi islahatlarına vaxtında start verilməsi, istehsal müəssisələrinin diversifikasiyası üçün münbit şəraitin yaradılmasıdır. Növbəti iqtisadi inkişaf mərhələsində diversifikasiyanı iqtisadi inkişafın "nüvəsi" hesab etmək olar. Bunun üçün cənab prezident kifayət qədər fərmanlar imzalamışdır ki, bu fərmanları da strateji inkişafa hesablanmış fərmanlar hesab etmək olar.

Adıçəkilən və iqtisadi inkişafa yol açan fərmanlar müasir dövrdə qeyri-neft sektorunda fəaliyyət göstərən kiçik və orta sahibkarların xüsusi dövlət qayğısı ilə əhatə olunması deməkdir. Bunun nəticəsidir ki, son illər uğurla həyata keçirilən dövlət proqramları və bu sahədə görülən tədbirlər qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına şərait yaratmışdır.

Sonda belə bir nəticəyə gələ bilərik ki, post neft dövrü üçün kredit-bank sistemində aparılan islahatlar, müəssisələrin diversfikasiyası, qeyri-neft sektorunun inkişafı, ixracın stimullaşdırılması kimi prioritet hesab edilən istiqamətlər dövlətin iqtisadi siyasətinin ana xəttini təşkil edir. Bu əsasdan kiçik və orta sahibkarlığın inkişafı üçün yaradılmış şərait Azərbaycanın növbəti inkişaf mərhələsində olduğunu əsaslandırır.

# "A-Qroup sığorta"da 45% artım

21 ildən artıq Azərbaycan sığorta bazarında fəaliyyət göstərən A-Qroup 2017-ci ilin birinci rübünə olan nəticələri açıqlayıb. Şirkətdən daxil olmuş məlumata görə, bu ilin üç ayında sığorta haqlarının həcmi 1 621 331.36 AZN təşkil edərək, keçən ilki hesabat dövrü ilə müqayisədə 500 443.61 AZN çox olmuşdur və bu da müqayisədə 45% artım deməkdir.

Ənənəvi olaraq ümumi yığımların böyük hissəsi 1 482 094.45 AZN olmaqla Könüllü Tibbi Sığorta üzrə olmuşdur.

Kasko üzrə sığorta haqları 22%, əmlak üzrə 33%, səyahət sığortası üzrə isə 6% artmışdır.

# "Caspian Development Bank" 2017-yə mənfəətlə başlayıb

"Caspian Development Bank (CDB)" ASC 2017-ci ilin 1-ci rübünü 652,7 min manat xalis mənfəət ilə başa vurub.

Bank ilk 3 ayda faiz gəlirləri üzrə 2 milyon 598 min manat gəlir əldə etməsinə qarşı qeyri-faiz gəlirləri üzrə 1 milyon 688 min manat zərər edib. Üstəlik Bankın faiz xərcləri 553,18 min manat, qeyri-faiz xərcləri də 969,79 min manat təşkil edib. Nəticədə, Bank ilk rübdə 613,78 min manat əməliyyat zərəri edib. Lakin aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatdan 1 milyon 266 min manat mənfətə əlavə edildiyindən, "Caspian Development Bank" birinci rübü 652,72 min manat xalis mənfəət ilə başa vurub. Bank 2016-cı ilin birinci rübündə də ehtiyatlardan 5 milyon 123.3 min manat mənfəətə əlavə edilməsi hesabına 5 milyon 502 min manat xalis mənfəət açıqlamışdı.

Bu ilin birinci rübündə "Caspian Development Bank"da ehtiyatlardan 1 milyon 266 min manatın azad olması Bankda ödəmə vaxtı keçmiş kreditlərin bir qisminin geri ödənildiyinə işarə edir.

31 mart 2017-ci il tarixinə "Caspian Development Bank" ASC 142 milyon 368 min manat cəmi aktivlərə, 75 milyon 923 min manat cəmi öhdəliklərə, 66 milyon 444 min manat cəmi kapitala malik olub. Bank ötən 31 mart 2016-cı il tarixində 120 milyon manat cəmi aktivlərə, 55 milyon 464 min manat cəmi öhdəliklərə, 64 milyon 536 min manat cəmi kapitala malik idi.

"Caspian Development Bank" "Synergy Group"a daxildir.

"Caspian Development Bank (CDB)" Açıq Səhmdar Cəmiyyəti 1988-ci ildə "Universal Bank" Kommersiya Bankı kimi Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş ilk kommersiya banklarından biridir. 24 sentyabr 2001-ci il tarixdə bankın adı dəyişilərək "Kövsər Bank" ASC olmuş, 26 yanvar 2015-ci il tarixdə isə "Caspian Development Bank (CDB)" ASC adı altında yeni lizensiya alınmışdır.

Bu lisenziyaya əsasən, Bakı şəhərində yerləşən "Caspian Development Bank (CDB)" ASC geniş spektrdə bank və digər maliyyə xidmətləri təklif edir.

# Atəşgah Sığorta Şirkəti ASC-nin 31 dekabr 2016-cı il tarixinə balans hesabatı

*manatla*

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 4 268 501,59 | 11 471 698,37 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | 321 763,32 | 293 836,24 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **71 000,00** | **471 000,00** |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | 71 000,00 | 471 000,00 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | 130 000,00 | 130 000,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | | |
| *Cəmi uzunmüddətli aktivlər* | 4 791 264,91 | 12 366 534,61 |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | **6 286 403,11** | **4 738 694,85** |
| birbaşa sığorta üzrə | 5 417 962,71 | 2 670 027,21 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | **5 047,52** | **31 076,21** |
| - təkrarsığortaçı üzrə | 5 047,52 | 4 430,41 |
| - təkrarsığortalı üzrə | | 26 645,80 |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | 64 078,36 | 146 460,40 |
| iddia tələbləri üzrə | 155 657,42 | 1 867 066,45 |
| işçi heyəti üzrə | 15 502,61 | 2 000,00 |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 628 154,49 | 22 064,58 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **15 533 420,12** | **14 330 582,47** |
| kassa | 21 884,92 | 18 302,24 |
| hesablaşma hesabı | 2 537 150,27 | 474 374,90 |
| valyuta hesabı | 32 398,73 | 231 438,18 |
| depozit hesablar | 12 941 986,20 | 12 803 741,10 |
| sair pul vəsaitləri | | 802 726,05 |
| **Qısamüddətli maliyyə aktivləri:** | **400 000,00** | **4 210 499,31** |
| dövlət qiymətli kağızları | 400 000,00 | 4 210 499,31 |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **5 571 700,86** | **5 169 366,27** |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | 5 571 700,86 | 5 169 366,27 |
| **Sair qısamüddətli aktivlər:** | **338 843,31** | **393 118,48** |
| gələcək hesabat dövrlərinin xərcləri | 27 942,70 | 26 342,70 |
| verilmiş avanslar | 286 497,07 | 351 348,56 |
| təhtəl hesablar | 24 403,54 | 15 427,22 |
| **Sair aktivlər** | 577 442,31 | 337 671,64 |
| *Cəmi qısamüddətli aktivlər* | 28 707 809,71 | 29 179 933,02 |
| CƏMİ AKTİVLƏR | 33 499 074,62 | 41 546 467,63 |

| K A P İ T A L  V Ə  Ö H D Ə L İ K L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 5 008 500,00 | 5 008 500,00 |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | **3 039 945,54** | **8 907 465,10** |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 1 397 642,58 | 8 630 050,66 |
| digər kapital ehtiyatları | 1 642 302,96 | 277 414,44 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **-233 900,54** | **984 146,69** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 627 422,64 | 356 724,05 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | -861 323,18 | 627 422,64 |
| Elan edilmiş dividendlər | | |
| *Cəmi kapital* | 7 814 545,00 | 14 900 111,79 |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **22 550 237,08** | **24 400 543,04** |
| Həyat sığortası sahəsi üzrə : | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 22 550 237,08 | 24 400 543,04 |
| **Qarşısıalınma tədbirləri fondu** | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları :** | 0,00 | 0,00 |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | 0,00 | 0,00 |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **2 660 603,80** | **861 590,07** |
| təkrarsığortaçı üzrə | 2 658 081,01 | 841 752,05 |
| təkrarsığortalı üzrə | 2 522,79 | 19 838,02 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| *Cəmi uzunmüddətli öhdəliklər* | 25 210 840,88 | 25 262 133,11 |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | **160 004,35** | **737 210,22** |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | 84 915,33 | 89 231,43 |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 75 089,02 | 647 978,79 |
| **Sair qısamüddətli öhdəliklər:** | **155 657,42** | **224 364,10** |
| gələcək hesabat dövrünün gəlirləri | 155 657,42 | 224 364,10 |
| alınmış avanslar | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | 158 026,97 | 422 648,41 |
| *Cəmi qısamüddətli öhdəliklər* | 473 688,74 | 1 384 222,73 |
| *CƏMİ ÖHDƏLİKLƏR* | 25 684 529,62 | 26 646 355,84 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 33 499 074,62 | 41 546 467,63 |
| Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

* Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir.

*manatla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | 40 802 717,94 |
| birbaşa sığorta üzrə sığorta haqları | 40 022 616,53 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 0,00 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 39 786,37 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 740 315,04 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | -2 252 640,55 |
| **İnvestisiya gəlirləri üzrə** | 601 837,51 |
| **Subroqasiya gəlirləri** | 276 174,19 |
| **Sair gəlirlər** | 4 534 462,45 |
| CƏMİ GƏLİRLƏR | **43 962 551,54** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **26 892 238,07** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 15 861 181,48 |
| qaytarılan sığorta haqları üzrə | 1 657 270,84 |
| tənzimləmə xərcləri | 137 562,91 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 9 236 222,84 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | 15 099 085,54 |
| **Sair xərclər** | 1 525 322,87 |
| CƏMİ XƏRCLƏR | **43 516 646,48** |
| **Maliyyə mənfəəti (zərəri)** | **445 905,06** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **445 905,06** |
| **Mənfəət vergisi** | 89 181,01 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **356 724,05** |

## BÜDCƏYƏ və BÜDCƏDƏNKƏNAR ÖDƏNİŞLƏR

*manatla*

| Göstəricilərin adları | Hesablanmışdır | Faktiki ödənilmişdir |
|---|---|---|
| Mənfəətdən vergi | 89 181,01 | 657 506,97 |
| Əlavə dəyər vergisi | 610,20 | 610,20 |
| Gəlir vergisi | 264 879,71 | 301 925,34 |
| Əmlak vergisi | 22 525,13 | 22 525,13 |
| Torpaq vergisi | 33,70 | 33,70 |
| Aksizlər | | |
| Ödəmə mənbəyində vergi (4%) | 498 628,84 | 446 445,44 |
| Sair vergilər | 45 042,30 | 45 042,30 |
| Sosial sığorta və təminat | 578 054,11 | 583 300,00 |
| Məcburi ödənişlər (0,3%) | 102 205,30 | 99 254,26 |
| İqtisadi sanksiyalar | | |



L.B. AUDIT XİDMƏTİ

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"Atəşgah Sığorta" ASC-nin rəhbərliyinə**

**Rəy**

Biz "Atəşgah Sığorta" ASC-nin 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və digər etik öhdəliklərimizi bu tələblərə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələzduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tədbiq edirik və peşəkar şəffaflıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübütlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiriririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Biz həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

**"L.B. Audit Xidməti" MMC**
**("Leading Edge Alliance"-ın müstəqil üzvü)**

L.B. AUDİT XİDMƏTİ

**M. A. Allahverdiyev**
**Auditor**

**Ünvan: Inşaatçılar Pr. 42/42, AZ1065, Bakı, Azərbaycan**

**30 Mart 2017-ci il**

# İNTERNET REKLAMI



İnternet reklamı İnternet şəbəkəsində yerləşdirilməklə kütləvi müştəriyə ünvanlanmış və inandırma xarakterinə malik olan əmtəə və xidmətlərin və ya müəssisənin təqdim edilməsidir.
İnternet reklamı, bir qayda olaraq, ikipilləli xarakterə malikdir. Birinci pillə reklamverici tərəfindən nəşrlərdə yerləşdirilən xarici reklam – reklam daşıyıcısıdır. Bu reklam növünə aiddir: bannerlər, mətn blokları, videoreklam, bayriklər (əsas brauzerin üstündən pəncərə şəklində açılan minimallaşdırılmış veb səhifə). Belə reklamda adətən bilavasitə reklamvericinin saytına istinad edilir (ikinci pillə). İnternetdə reklam adi reklama nisbətən bir sıra üstünlüklərə malikdir: İnternet şəbəkəsi istifadəçisinin reaksiyasının və hərəkətlərinin izlənməsi imkanı, reklamverici mövcud reklam kampaniyasına dəyişiklik edə bilər. İstifadəçinin arzuolunan hərəkətləri konversiya adlanır.
İnternet reklamının əsas müasir texnologiyalarından biri real zamanda reklam elanlarının auksionunu qaydaya salan RTB (ing. Real Time Bidding) platformasıdır.
İnternet reklamının çoxsaylı növləri var:
1. Media reklamı reklam meydançası kimi təqdim olunan saytlarda mətn qrafik xarakterli reklam materiallarının yerləşməsidir. Bir çox əlamətlərinə görə çap kütləvi informasiya vasitələrindəki reklama oxşayır. Lakin bannerdə hiperistinadların, animasiyalı təsvirlərin və ya videoların canlanması və bannerlərdən mobil telefona zəng (WOW-call) imkanı media reklamının təsirini xeyli genişləndirir. Bir qayda olaraq, media reklamı banner reklamı formasına malikdir.
2. Kontekst reklamı kontekst meydançalarında mətn qrafiki xarakterli reklam materiallarının yerləşməsidir. Reklam materiallarının və onların kontekst meydançalarının uyğunluğu reklam servisinin alqoritmi ilə müəyyən olunur. Kontekst reklamının yarım növü axtarış reklamıdır. Axtarış reklamında yuxarıda göstərilən uyğunluq axtarış sorğusu ilə müəyyən edilir.
3. Axtarış reklamı istifadəçiyə axtarış funksiyasını təqdim edən saytlarda, yaxud AS (axtarış sistemləri) tərəfdaşlarının saytlarında axtarışın nəticələri ilə bir sırada mətn qrafik xarakterli reklam materiallarının yerləşdirilməsidir. Bu və ya digər reklam xəbərlərinin nümayiş etdirilməsi iştirakçının axtarış sorğusundan asılıdır. Bir qayda olaraq, axtarış reklamı mətn reklamı formasına malikdir.
4. Geokontekstreklamı dedikdə, istifadəçinin yerləşməsini nəzərə almaqla mobil telefondakı reklamla bərabər, veb kartlarda (məsələn, Google Maps, Yandeks kartlar, @mail.ru kartları), həmçinin LBA (Location-based advertising) kateqoriyasına aid olan reklamlar başa düşülür və İnternet reklamına aid olur. Reklam xəbərləri sorğunun konteksti nəzərə alınmaqla xəritə (kart) sahəsinin baxışı zamanı istifadəçiyə göstərilir. Məsələn, şəhərin müəyyən rayonunda bütün gözəllik salonlarına baxmaq olar.
5. Virus reklamı reklam materiallarının bir növüdür ki, bunların yayıcıları parlaq, yaradıcı, qeyri-adi ideyalar hesabına və ya təbii, yaxud etibarlı göndərişdən istifadə etməklə cəlb etməyə qadir olan məzmunun formalaşması sayəsində məqsədli auditoriyanın özüdür. Bir qayda olaraq, belə reklam kimi maraqlı videoçarxlar, flash-əlavələr və s. çıxış edir.
İnternetdə digər reklam növləri, bir qayda olaraq, media və axtarış reklamının əlamətləri ilə uyğunlaşdırılır və ya internet səhifələrində yerləşməsi ilə yanaşı, sahəyə bu əlamətləri köçürürlər. Belə ki, istifadəçinin iş stansiyasında qurulan proqramların müştərilərində reklamın yerləşdirilməsi və yazışma üzrə göndərişlərdə reklamın yerləşdirilməsi İnternet reklamının növləri hesab olunur.
Onlayn oyunlarında pleysment prodakt (ing. product placement – məhsulun yerləşməsi) reklam olunan məhsulun və ya brendin oyun prosesinə inteqrasiyasıdır, internet reklam bazarının yeni və sürətlə artan seqmentlərindən biridir. Bir çox brendlər çoxistifadəçili onlayn oyunların auditoriyasının sürətlə artımını nəzərə alaraq, potensial alıcılarla kommunikasiyaların bu növünün perspektivliyini və səmərəliliyini dərk edirlər. Belə bir oyun növü kimi həm sadə bir istifadəçi "Kazual" oyunlara (ing. casual game – geniş dairədə istifadəçilər üçün nəzərdə tutulan kompüter oyunu), həm də qlobal strategiyalar ("Role – Playing game" - kompüter və video oyunlarının bir növü) və RPG-yə çıxış edə bilər. Öz əhəmiyyətinə görə oyunlardan səmərəli reklam üçün ən uyğun gələni çox istifadəçili iqtisadi onlayn oyunlar və biznes simulyatorlarıdır.
İnternetdə irəliləyişin digər növləri də mövcuddur:
I.Elektron poçtdan istifadə etməklə. Elektron poçt (Elektronic mail, e-mail) kağız daşıyıcıların tətbiqi olmadan və ya sənədlərdə mübadilə etməyə istifadəçilərə imkan verən şəbəkə xidmətidir. Reklam xəbərlərinin çatdırılması üçün e-mail-dən istifadənin üstünlüklərinə aiddir:
- Şəbəkənin praktiki cəhətdən bütün istifadəçilərinin elektron poçtu var;
- Elektron poçt xəbərin "push" texnologiyasıdır (ing. push itələmə deməkdir və İnternetdə informasiyanın yayılması üsullarından biridir);
- Şəxsləşdirilmiş müraciət imkanı verir;
- Alıcı nöqteyi-nəzərindən maraqlıdır, xəbər onun həmkarları və tanışları arasında yayıla bilər.
**(ardı var)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

## "Yüksək kredit faizləri ilə bağlı hökumətin ciddi çalışmaları var"

Bunu baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini, İcra katibi Əli Əhmədov bildirib. O qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin hökumətin iclasında bildirdiyi kimi, bank sektorunda olan yarıtmaz hallar ölkə iqtisadiyyatına böyük zərbə vurub:
"Bu, reallıqdır. Prezidentin təşəbbüsü ilə hazırda bank sektorunda sağlamlaşdırılma istiqamətində ciddi addımlar atılır. Təbii ki, bunların arasında kreditlərlə bağlı problemlər də həllini tapmalıdır. Banklar iqtisadiyyatın inkişafının damar sistemidir. Bank fəaliyyətini sağlamlaşdırmadan iqtisadiyyatın inkişafına nail olmaq mümkün deyil. Az faizli kreditlər olmadan sahibkarlığın inkişafına da dəstək vermək mümkün deyil. Bütün bunlar hamısı hökuməti ciddi şəkildə düşündürür. Obyektiv çətinliklər var, bununla bağlı ən düzgün qiyməti cənab prezident verib. Bu istiqamətdə çox ciddi addımlar atılır və güman edirəm ki, yaxın zamanlarda maliyyə-kredit sahəsində ciddi sağlamlaşdırmanı həyata keçirə biləcəyik".

## NBC Bank böyüməyə başlayıb

NBC Bank ASC 2017-ci ilin birinci rübü üzrə maliyyə göstəricilərini açıqlayıb.
İlk 3 ayda Bankın cəmi gəlirləri 4 milyon 441 min manat, o cümlədən faiz gəlirləri 3 milyon 541 min manat, qeyri-faiz gəlirləri 900 min manat təşkil edib. Faiz və qeyri-faiz xərcləri isə 3 milyon 334 min manat olduğundan Bank ilk rübü 1 milyon 107 min manat əməliyyat mənfəəti ilə başa vurub. Bank əməliyyat mənfəətini aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına yönəltdiyindən, 80.5 min manatlıq zərər yaranıb. Qeyd edək ki, ehtiyatlar "bufer" rolunu oynayır və belə ayırmalar Bankı gücləndirir. Bankın əməliyyat mənfəətini xalis mənfəətə deyil, depzoit və kreditlər üzrə baş verə biləcək itkilərə görə ehtiyatlara ayırması müsbət haldır. NBC Bank 31 mart 2017-ci il tarixinə 165 milyon 268 min manat cəmi aktivlərə, 111 milyon 937 min manat cəmi öhdəliklərə, 53 milyon 331 min manat cəmi kapitala malik olub. Bank 2016-cı ilin sonunda 158 milyon 970 min manat cəmi aktivlərə, 106 milyon 31 min manat cəmi öhdəliklərə, 52 milyon 939 min manat cəmi kapitala malik idi.
Birinci rübdə Bankın kredit portfeli 120 milyon 975 min manatdan 126 milyon 264 min manata yüksəlib. Bankda depozitlər isə 67 milyon 598 min manatdan 71 milyon 642 min manata qalxıb.

## "Barama Hackathon 2017" layihəsinə qeydiyyat başlandı

Azercell Telekom MMC və PAŞA Bank-ın dəstəyi ilə Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin gənc proqramçılar üçün təşkil etdiyi təlim və yarış xarakterli "Barama Hackathon 2017" layihəsinə start verilib. Müəyyən bir mövzu ilə bağlı proqramçıların komanda şəklində məhdud zaman çərçivəsində rəqəmsal resurslar hazırladığı "Hackhaton"lar bütün dünyada adətən "Google", "Netflix", "Facebook", "HP" və "Microsoft" kimi nəhəng şirkətlər tərəfindən həyata keçirilir. Developerlərə təqdim olunan bu dəfəki mövzu mobil telefonların xüsusiyyətlərindən istifadə edərək yeni mobil tətbiqin yaradılmasıdır. 22 aprel saat 09:00-da start verilən yarış 36 saat davam edəcək və 23 aprel saat 21:00-da dayandırılacaq. Bu müddət ərzində hazırlanan mobil tətbiqlər 25 aprel tarixində münsiflər heyətinə təqdim olunacaq və ilk üç yerin qalibləri Azercell və PAŞA Bank tərəfdən dəyərli hədiyyələrlə mükafatlandırılacaqlar.
Layihədə iştirak etmək istəyən proqramçılar hackathon.barama.az saytında qeydiyyat formasını doldurmalıdırlar. "Barama Hackathon 2017"-də qələbə uğrunda10 komanda mübarizə aparacaq. 18.04.2017 tarixi qeydiyyat üçün sonuncu gündür. Məlumat üçün bildirək ki, layihə çərçivəsində komandaları qida ilə "Özsut" restoranlar şəbəkəsi təmin edəcək. Tədbirin Media dəstəyi isə technote.az portalına məxsusdur.
Xatırladaq ki, ötən il Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin təşkilatçılığı ilə "Barama Hackathon 2016" keçirilib. Layihənin əsas məqsədi ölkəmizdə informasiya texnologiyaları sahəsinə olan marağı artırmaq və bu sahədə olan istedadlı insanların bacarıqlarını nümayiş etdirməsinə imkan yaratmaqdır.




## UNEC kollektivi Lələtəpədə



UNEC-in rektoru, professor Ədalət Muradov və universitetin müəllim-tələbə heyəti Azərbaycan Ordusunun ötən ilin aprel döyüşlərində qazandığı qələbə münasibətilə Horadiz şəhərinə və Lələtəpə yüksəkliyinə səfər edib.
Müdafiə Nazirliyi və Füzuli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı keçirilən səfərdə UNEC kollektivi ümummilli lider Heydər Əliyevin Horadizdəki abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyublar. Heydər Əliyev parkından Horadiz-Cəbrayıl avtomobil yolunun kənarında inşa edilən "Aprel şəhidlərinə xatirə" abidəsinə qədər davam edən zəfər yürüşünə qatılıblar.
Zəfər yürüşündən sonra UNEC kollektivi Birlik komandiri, general-mayor Mais Bərxudarov, əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani, millət vəkili, UNEC-in "Qiymət və qiymətləndirmə" kafedrasının müdiri Xanhüseyn Kazımlı ilə birlikdə aprelin ilk günlərində Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin işğalından azad etdiyi strateji əhəmiyyətli "Lələtəpə" yüksəkliyinə gediblər.
Əsgər və zabitlərlə görüşdə general-mayor Mais Bərxudarov UNEC kollektvinin Lələtəpəyə səfər edən ilk universitet olduğuna diqqət çəkərək bu təşəbbüsü yüksək qiymətləndirib.
Rektor Ədalət Muradov UNEC-in Müdafiə Nazirliyinin dəstəyi ilə universitetin professor-müəllim heyətinin və tələbələrin tez-tez cəbhə bölgələrinə səfərlərindən, Vətənin müdafiəçiləri ilə görüşlərindən danışıb, universitet kollektivinin də torpaqlarımızın işğaldan azad olunması naminə hər an Ali Baş Komandanın əmrinə hazır olduğunu bildirib.
Polkovnik Abdulla Qurbani və millət vəkili Xanhüsey Kazımlı görüşdə Azərbaycan Ordusunun qüdrətindən, hərbiçilərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıqlardan danışıblar.
Görüşdə UNEC-in tələbəsi, aprel döyüşlərinin iştirakçısı Məftun İsmayılov xatirələrini bölüşüb.

## Bakcell abunəçiləri Azərbaycanın bölgələrində 3-cü dəqiqədən sonra pulsuz danışacaqlar

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti daha sərfəli YeniDoğma tarifini təqdim edir. Bu yeni tarifin istifadəçiləri şəbəkədaxili zənglərin 3-cü dəqiqəsindən sonra pulsuz danışacaqlar. Zənglərin ilk 3 dəqiqəsi zamanı isə bir dəqiqənin qiyməti 4 qəpik təşkil edir. Ölkədaxili digər zənglərin bir dəqiqəsinin qiyməti də həmçinin 4 qəpik təşkil edir. Bu sərfəli tarifdən faydalanmaq üçün sadəcə olaraq *138#5#YES kodunu yığmaq və ya YeniDoğma tarifində olan yeni nömrə almaq yetərlidir. Bütün CIN və Klass tarifinin istifadəçiləri həmçinin bu təklifdən yararlana bilərlər.
Qeyd etmək lazımdır ki, pulsuz şəbəkədaxili danışıqlar zəngin 4-cü dəqiqəsindən 30-cu dəqiqəsinə qədər təqdim edilir və bu müddət bitdikdən sonra pulsuz danışığa davam etmək üçün abunəçinin balansından növbəti 3 dəqiqə zamanı vəsait çıxılır. Qiymətlər Bakı şəhəri, Sumqayıt şəhəri və Abşeron yarımadasından kənar bölgələrdə qüvvədədir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 3150